# ELM НАУКА

Qüvvət elmdədir...

Nizami Gəncəvi

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Орган Президиума Национальной академии наук Азербайджана

№ 41 (1351) ❖ Cümə, 9 dekabr 2022-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur





## Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir.

Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 2022-ci il*

# "Akademik Xoşbəxt Yusifzadə" tankeri istismara verilib

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

**Dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin istismara verilməsi mərasimində iştirak edib.**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə raport verərək, yeni inşa edilmiş "Akademik Xoşbəxt Yusifzadə" gəmisinin istismara hazır olduğunu bildirib.

Dövlətimizin başçısına məlumat verilib ki, uzunluğu 141, eni 16,9 metr olan "Akademik Xoşbəxt Yusifzadə" tankerinin yükgötürmə qabiliyyəti 7800 tondur. Gəminin daimi heyəti 15 nəfərdən ibarətdir.

Tankerin inşasına 2019-cu ilin avqustunda başlanılıb. Gəmidə Finlandiya, Norveç, İsveç, ABŞ və Türkiyənin tanınmış istehsalçılarının avadanlıqları quraşdırılıb.

Yeni tanker Bakı gəmiqayırma zavodunda inşa olunan 4 tankerdən üçüncüsüdür və bu gəmi ilə həm neft, həm də kimyəvi məhsulların daşınması mümkündür. Gəminin suya oturumu ASCO-nun digər tankerləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Rusiyanın su kanalları ilə Xəzərdən kənara yük daşımağa imkan yaradır.

Qeyd edək ki, "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. ASCO-nun Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 25 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Prezident İlham Əliyev söhbət əsnasında gəminin hazırlanması ideyası ilə bağlı təxminən üç il bundan əvvəl qərar qəbul etdiyini bildirib: "Dedim, qərar qəbul edirəm ki, növbəti gəmi Xoşbəxt müəllimin adına olacaqdır və hamı üçün sürpriz olmuşdu, o cümlədən Xoşbəxt müəllim üçün. O bilmirdi mənim hədiyyəm nə olacaq, hədiyyəm də, bax, bu oldu".

Xoşbəxt Yusifzadə cavabında təşəkkürünü bildirib: "Hörmətli Prezident, doğrudan da mənə böyük qiymət verdiniz, doğrudan da mənə çox böyük bir hədiyyə etdiniz. Bu, Sizin təkcə mənə yox, bütün neftçilərə olan hörmətinizdir. Ümumiyyətlə, Siz o vaxtlar elə bizimlə on il bir yerdə işləmisiniz. Prezident olandan sonra da elə gözünüz bizim üstümüzdədir. Bizim bütün nailiyyətlərimiz Sizinlə bağlıdır. Siz hamısı ilə fərəhlənirsiniz, bizə də diqqət yetirirsiniz. Mən Sizə onu da deyim ki, cənab Heydər Əliyev 1969-cu ildə rəhbərliyə gələndən sonra bütün sahələrlə maraqlandı, hər yerlə, bizim neftçilərlə də maraqlandı. O vaxt dənizin dərinliyi 40 metr olan bütün sahələrində yataqlar kəşf olunmuşdu. Amma gəmiçilikdə gəmilər yox idi, az bir müddətdə 400-dən artıq gəmi aldı, kran gəmiləri, yükdaşıyan gəmilər. Bunların hamısı indi adları dünyada məşhur olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının kəşf olunmasına imkan verdi. Doğrudan da cənab Heydər Əliyev sanki, neçə il öncə gələcəyi görürdü. Doğrudan da böyük işlər gördü".

Prezident İlham Əliyev 1970-ci illərdə Azərbaycanda neft sənayesinin yeni dövrünün başlandığını vurğulayaraq, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Xəzər dənizində neft-qaz yataqlarının işlənməsinə yeni təkan verildiyini qeyd edib: "...Heydər Əliyevin təşəbbüsü ilə və deyə bilərəm ki, təkidi ilə Dərin özüllər zavodu inşa edilmişdir. Hansı ki, o vaxt Həştərxanda planlaşdırılırdı. O, ondan xəbər tutdu, sovet hökumətinin yüksəkvəzifəli şəxslərinə müraciət etdi və sübut etdi ki, bu, Dərin özüllər zavodunun tikilməsi üçün ən məqbul yer Bakıdır, Azərbaycandır. Nə üçün? Çünki Xəzərin bütün neft-qaz sənayesinin mərkəzi bura idi və buna nail oldu".

Dövlətimizin başçısı onu da bildirib ki, biz "Əsrin kontraktı" üzərində işləməyə başlayanda bu Dərin özüllər zavodunun bizdə olmasının nə qədər böyük əhəmiyyəti var idi. Çünki əgər bu zavod olmasaydı, bizim bütün kontraktlarımızın icrası bəlkə də 5-10 il gecikə bilərdi. Yəni, o vaxt bunu etdi və müstəqillik dövründə Heydər Əliyev neft strategiyasının icraçıları kimi biz sizinlə "Əsrin kontraktı" üzərində digər yoldaşlarla bərabər işləmişik və o günləri də həmişə xatırlayırıq. Bu gün inkişaf edən, güclənən Azərbaycanın təməli məhz o vaxt qoyuldu. Əgər o kontrakt imzalanmasaydı bizim gəlirlərimiz olmayacaqdı. Gəlir olmayan yerdə hər hansı bir inkişafdan söhbət gedə bilməz.

"Bu gün biz Ulu Öndərin siyasətinə sadiq qalaraq yeni nəqliyyat infrastrukturu obyektləri yaradırıq. Bax, bu tankerin yaradılmasının təməli 9 il bundan əvvəl gəmiqayırma zavodunun istismara verilməsi ilə qoyulmuşdur. O qərarı da mən qəbul etmişdim, bunu biz həll etdik. O vaxt bəziləri hesab edirdi ki, buna ehtiyac yoxdur. Onsuz da biz başqa ölkələrdən gəmilər, tankerlər alırıq. Amma mən bilirdim ki, bunun böyük əhəmiyyəti olacaq. İndi heç kimdən asılı deyilik, həm peşəkar komanda var, həm təcrübə var. Deməli, burada bütün inşaat işləri yerli mütəxəssislər tərəfindən aparılır. Biz hər il bir neçə tanker, quru yük gəmisi, "Ro-Ro" gəmisi, bərə inşa edə bilirik. Bu gəminin sizin adınıza olması hesab edirəm ki, çox ədalətlidir. Düzdür, bu, nadir bir haldır, bəlkə də deyə bilərəm ki, yeganə bir haldır, insanın sağlığında gəmiyə onun adı verilir. Amma bu ədalətlidir. Bilirsiniz ki, mənim sizə çox böyük hörmətim var - həm mütəxəssis kimi, əfsanəvi neftçi kimi, gözəl insan kimi. Bax, bu gün sizin bizimlə bərabər burada olmağınız bir çoxlarını ruhlandırır ki, elə bu yaşda da adam gümrahdır. Sağlamlığı da yerindədir və öz nikbinliyi ilə hamımızı daha gözəl işlər görməyə ruhlandırır. Ona görə təbrik edirəm, Xoşbəxt müəllim", - deyə Prezident İlham Əliyev bildirib.

Sonra Prezident İlham Əliyev və akademik Xoşbəxt Yusifzadə tankerin istismara verilməsini bildirən lenti kəsərək xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, dünyada postpandemiya, geosiyasi təlatümlər, münaqişə ocaqları və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları özü istehsal edir. Bakıdakı zavodlarda gəmilərin istehsalı, o cümlədən "Akademik Xoşbəxt Yusifzadə" tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür.

Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda həyata keçirilən böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etdiyini göstərməklə, gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə nümayiş etdirir.

Onu da qeyd edək ki, Azərbaycanın dəniz nəqliyyatı tarixində 1957-ci ildən sonra ilk dəfədir hər hansı bir gəmiyə həyatda olan şəxsin adı verilir. Bu da ölkəmizin neft sənayesinin canlı əfsanəsi, görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə diqqət və qayğının, eləcə də böyük hörmətin göstəricisidir. Tankerə bu ad 2020-ci il yanvarın 15-də Xoşbəxt Yusifzadənin 90 illik yubileyi ilə bağlı Prezident İlham Əliyevin əlavə tədbirlər haqqında imzaladığı Sərəncama əsasən verilib.

**Azərbaycanda görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi sahəsində böyük ənənə mövcuddur. Xüsusən, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə məşhur yazıçı və şairlərin yubileylərinin geniş miqyasda keçirilməsindən Azərbaycan xalqını dünyada tanıtmaq və azərbaycançılıq ideyasını daha da qüvvətləndirmək məqsədilə məharətlə istifadə etmişdir. Bu baxımdan Ulu öndər Heydər Əliyevin adı ilə bağlı epoxada Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Hüseyn Cavid, Səməd Vurğun, İlyas Əfəndiyev, Məmməd Araz və başqa sənətkarların dövlət səviyyəsində qeyd edilən yubiley tədbirləri ölkəmizdə Azərbaycançılıq, vətənpərvərlik, millilik, tarixilik və müasirlik kimi milli-mənəvi dəyərlərin inkişaf etdirilməsinə, xalqımızın ədəbi-tarixi baxışlarının formalaşdırılmasına uğurla xidmət etmişdir.**



# "Heydər Əliyev İli"nin yol xəritəsi və vəzifələrimiz

Bununla belə, adlı-sanlı yazıçı və şairlərin yubileyləri ilə yanaşı, konkret olaraq bir ili bütünlüklə qüdrətli bir sənətkara həsr etmək müstəqillik dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ədəbi-ictimai və siyasi-ideoloji mühitə gətirdiyi yeni və əhəmiyyətli bir ənənədir. Məhz Prezident İlham Əliyevin imzaladığı Sərəncamlarla ölkəmizdə ilk dəfə olaraq İmadəddin Nəsimi və Nizami Gəncəvi illəri böyük uğurla keçirilmişdir. Nəsimi və Nizami illəri həm bu qüdrətli sənətkarları Azərbaycan şairləri kimi dünyaya təqdim etmək, həm də onların yaradıcılığındakı milli və bəşəri ideyaları xalqımıza aşılamaq cəhətdən son dərəcə əhəmiyyətli olmuşdur. Eyni zamanda, İmadəddin Nəsimi və Nizami Gəncəvi illəri bu qüdrətli sənətkarların həyatı və yaradıcılığını daha dərindən və əsaslı şəkildə tədqiq etmək, naməlum mənbələri, nadir əlyazmalarını aşkar edib elmi dövriyyəyə daxil etmək baxımından da əhəmiyyətli olmuşdur. Nizami Gəncəvi ilinin əhəmiyyətinin miqyasını əyani şəkildə təsəvvür etmək üçün nəzərə çatdırmaq istəyirəm ki, 2021-ci ildə cəmi bir il ərzində Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölmələrində 26 ölkədə 14 dildə 47 kitab və çoxlu sayda məqalələr çap edilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev 29 sentyabr 2022-ci ildə qarşıdakı 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamaqla görkəmli şairlərin adı ilə bağlı yubiley tədbirlərinin keçirilməsi ənənəsinə ilk dəfə olaraq böyük tarixi şəxsiyyətimizin də qeyd olunmasını əlavə etmişdir. Beləliklə, Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq ümummilli lider Heydər Əliyev kimi qüdrətli bir dövlət xadiminin, görkəmli tarixi şəxsiyyətin ili dövlət səviyyəsində geniş şəkildə qeyd ediləcəkdir.

İsbata ehtiyac olmayan bir gerçəklikdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyada görkəmli dövlət xadimlərindən biri kimi qəbul olunur. Dünyanın məşhur şəxsiyyətləri, böyük siyasətçiləri ulu öndər Heydər Əliyevin dövlətçilik sahəsindəki müstəsna istedadını və böyük siyasətdəki məharətini yüksək qiymətləndirmişlər. Amerikanın keçmiş Prezidenti Bill Klintonun Heydər Əliyevə dünyanı idarə etməyi bacaran görkəmli bir siyasi xadim kimi yüksək qiymət verməsi, Türkiyə Cümhuriyyətinin keçmiş prezidenti Süleyman Dəmirəlin bu böyük dövlət xadiminin "bütün türk dünyasının yetişdirdiyi ən məşhur dövlət xadimlərindən biri" olduğunu bəyan etməsi bunun əyani sübutudur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin yeni tarixi epoxada banisi, qüdrətli xilaskarı və böyük qurucusu olan tarixi şəxsiyyətdir.

Heydər Əliyev - Azərbaycançılıq idealının rəmzidir.

Heydər Əliyev - Azərbaycan xalqının ümummilli lideridir.

Heydər Əliyev dünya tarixinin gedişatını dəyişməyi və tarixi yenidən qurub yaratmağı bacaran nadir dövlət xadimlərindən biridir.

Və nəhayət, obrazlı şəkildə belə demək olar ki, Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin və böyük siyasətin Nizami Gəncəvisidir. Dahilik zirvəsində söz sənətinin bahadırı Nizami Gəncəvinin bədii dühası ilə müstəqil dövlətçilik və siyasət nəhəngi Heydər Əliyev siyasi dühası dahilik zirvəsində birləşir.

Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə Azərbaycan geridə qalmış aqrar ölkədən geniş islahatların keçirilməsi əsasında hərtərəfli inkişaf etmiş bir respublikaya çevrilmişdir.

Siyasi Büronun üzvü kimi keçmiş sosialist ölkələri düşərgəsində və müttəfiq respublikalarda baş vermiş millətlərarası dini, siyasi münaqişələrin və çevrilişlərin aradan qaldırılmasında Heydər Əliyevin dəmir iradəsi və proqnozları mühüm rol oynamışdır. Ən yaxın tariximizdə Azərbaycanın dövlət müstəqilliyinin real itirilməsi təhlükəsi də Heydər Əliyevin qətiyyəti, ən optimal çıxış yollarını tapmaq və düzgün müəyyən edilmiş strategiyanı, böyük bacarıqla həyata keçirmək istedadı sayəsində aradan qaldırılmışdır. Məlum olduğu kimi, Heydər Əliyev bir neçə dəfə Bakıda və Naxçıvanda dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla böyük güclərin, məkrli dövlətlərin planlarını dağıtmağa, alt-üst etməyə nail olmuşdur.

Bütün bunlara görə 2023-cü ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Heydər Əliyev İli" elan olunması ilk növbədə bu böyük dövlət xadiminin dünya siyasətindəki, habelə Azərbaycan xalqının tarixində və taleyindəki xidmətlərinin miqyasını müəyyən edir.

"Heydər Əliyev İli" haqqında Prezidentin Sərəncamı tarixin axarını dəyişdirmiş bu dahi şəxsiyyətin dünya tarixindəki yerinə və mövqeyinə, Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısındakı misilsiz xidmətlərinə dövlət səviyyəsində verilmiş yüksək qiymətin əməli ifadəsidir. "Heydər Əliyev İli" haqqındakı Prezident Sərəncamındakı aşağıdakı fikirlər bu görkəmli dövlət xadiminin miqyasını və xidmətlərini obyektiv şəkildə ifadə edir: "Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin mənəvi dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer qazanmasında müstəsna rol oynamışdır Dövlətçilik salnaməsində silinməz izlər qoymuş, azərbaycanlı olması ilə fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqındakı 29 sentyabr 2022-cü il tarixli Sərəncamı "Heydər Əliyev İli"nin həm nəzəri-metodoloji mahiyyətini, həm də əməli-praktik istiqamətlərini aydın surətdə əks etdirir. Bu baxımdan Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident Sərəncamı "Heydər Əliyev İli"nin gerçək və əhəmiyyətli bir proqramıdır. "Heydər Əliyev İli"nin əsas siyasi-ideoloji konturlarını tam əhatə edən Sərəncam qarşıdakı dövrdə həyata keçirilməsi zəruri olan tədbirlərin də əsl mahiyyətini real şəkildə əks etdirir. Ona görə də mükəmməl şəkildə hazırlanmış dövlət Sərəncamını "Heydər Əliyev İli"nin aydın yol xəritəsi də adlandırmaq olar.

"Heydər Əliyev İli" görkəmli dövlət xadiminin keşməkeşli və mənalı həyatı, çoxcəhətli dövlətçilik istedadı, mübarizəsi və idealları ilə əlaqədar bir çox məsələlərə yenidən və daha əsaslı şəkildə baxılması zərurətini meydana qoyur:

Məlum olduğu kimi, Azərbaycan dövləti və xalqımız 1969-cu ildən başlayaraq, 53 ildir ki, Heydər Əliyev epoxasında qurub-yaradır və ölkəmiz ulu öndərin dövlətçilik ideallarının işığında ardıcıl olaraq hərtərəfli inkişaf edir. Bu tarixi epoxanın parlaq hadisələri və nailiyyətləri Heydər Əliyevin ölməz adı, böyük ideyaları və mübarizəsi ilə üzvü surətdə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi 19 il ərzində həm beynəlxalq miqyasda və həm də respublikamızda qazandığı tarixi Zəfərlər, həyata keçirdiyi möhtəşəm proqramlarla Heydər Əliyev epoxasını daha da inkişaf etdirməyə nail olmuşdur. Beləliklə, Prezident İlham Əliyev müasir dövrdə Azərbaycan Respublikasının yeni erasını yaratmışdır. 2023-cü ilin "Heydər Əliyev İli" elan etməsi haqqındakı tarixi Sərəncam çoxəsrlik Azərbaycan tarixində xüsusi mərhələ olan Heydər Əliyev epoxasının mahiyyətini, bu epoxanın mühüm hadisələrini, nailiyyətlərini, nəticələrini daha əsaslı və sistemli şəkildə dərk və şərh etməyə, xalqımıza və dünyaya çatdırılmağa şərait yaradır.

Bundan başqa, görkəmli dövlət xadimi Heydər Əliyev dünya dövlətçilik tarixində Ümummilli Lider fəxri adı qazanmış nadir tarixi şəxsiyyətlərdəndir. "Heydər Əliyev İli"ndə Ümummilli Liderliyin siyasi-fəlsəfi miqyası və missiyası mahiyyəti dərindən və hərtərəfli surətdə tədqiq edilərək araşdırılmalı ümumiləşdirilmiş elmi-nəzəri qənaətlər meydana qoyulmalıdır. Ümummilli liderlik fəlsəfəsinin konseptual əsaslarının müəyyən edilməsi və görkəmli dövlət xadimi Heydər Əliyevin nümunəsində konkret bir örnəyinin meydana qoyulması Azərbaycan humanitar və ictimai elmlərinin şərəfli borcu və məsul vəzifəsidir.

Heydər Əliyevin adı ilə bağlı olan azərbaycançılıq təliminə də yenidən baxışa ehtiyac vardır. Məlum olduğu kimi, uzaqgörən dövlət xadimi Heydər Əliyev Azərbaycançılıq təliminin təməllərini hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə formalaşdırmışdır. Bu mənada müstəqillik illərində yeni dövlət müstəqilliyi qazanmış digər respublikalarla müqayisədə dövlətçilik ideologiyasının yenidən müəyyən edilməsi baxımından Azərbaycan Respublikası bir addım qabaqda olmuşdur. Ona görə də azərbaycançılıq ideologiyasının yaradılması və inkişaf etdirilməsinin Heydər Əliyev modeli kompleks şəkildə öyrənilməli, ümumiləşdirilmiş əsaslı nəticələr çıxarılmalı, əsas müddəalar müəyyən olunmalıdır.

Haqqında çox yazılmasına baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyevin dünya dövlətçilik tarixində və Azərbaycan xalqının milli intibahındakı yeri və rolunu real şəkildə əks etdirən fundamental və sistemli elmi əsərlərlə birlikdə, müxtəlif janrlarda yazılmış parlaq ədəbiyyat, incəsənət əsərlərinin yazılmasına ehtiyac vardır. Fikrimizcə, Heydər Əliyevin elmi bioqrafiyasını yaratmaq da qarşıda duran mühüm vəzifələrdəndir. Azərbaycan Milli Elmlər Akademiyasında və ali məktəblərimizdə fəaliyyət göstərən elm adamları potensialı, ölkəmizdə yazıb-yaradan yazıçılar və incəsənət ustaları xalqımızın Ümummilli liderı Heydər Əliyevin adı və xidmətləri ilə əlaqədar olan məsələlərin yüksək səviyyədə həll edilməsinə təminat verir.

Bundan başqa, "Heydər Əliyev İli" - ulu öndərin xatirəsinin əbədiləşdirilməsi sahəsində yeni təşəbbüslər İli olacaqdır. Fikrimizcə, işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli dövlət xadimi Heydər Əliyevin heykəlinin ucaldılması xalqımızın çox ürəyindən olardı.

Azərbaycan elmi-intellektual potensialı, yaradıcı ziyalılarımız və alimlərimiz "Heydər Əliyev İli"nin çağırışlarına özlərinin parlaq elmi və bədii əsərləri ilə cavab verəcəkdir. Bu mənada "Heydər Əliyev İli" ədəbiyyat və incəsənətin, humanitar və ictimai elmlərin inkişafı sahəsində geniş üfüqlər açacaqdır. Ümummilli Liderimiz Heydər Əliyevin ömür və mübarizə yolunun ibrətamiz dərslərinin, azərbaycançılıq ideallarının daha dərindən və əsaslı şəkildə tədqiq olunub öyrənilməsi, xalqımıza və dünyaya çatdırılması üçün bütün imkanlar səfərbər olunacaqdır.

"Heydər Əliyev İli" peşəsindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının ulu öndərimiz qarşısındakı dərk olunmuş bir mənəvi-siyasi borcunu dahi şəxsiyyətin adına layiq şəkildə yerinə yetirməsi ili olacaqdır. Hər bir Azərbaycan vətəndaşının ümummilli liderin ideallarının işığında verəcəyi məsuliyyətli hesabat "Heydər Əliyev İli"nin Azərbaycanın müstəqillik tarixinin ən inkişaf etmiş ilinə çevrilməsini təmin edəcəkdir. Bu mənada "Heydər Əliyev İli" müstəqil Azərbaycan dövlətinin daha da inkişaf etdirərək möhkəmləndirilməsi, müstəqilliyin təntənəsi ili kimi tarixdə qalacaqdır.

Söz yox ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ilə 30 illik işğaldan sonra Qarabağın düşməndən azad edilməsi və ölkəmizdə Böyük Qayıdış hərəkatına başlanılması Azərbaycanın çoxəsrlik tarixində nadir tarixi hadisədir. Hesab edirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə mümkün ola biləcək ən yaxın dövrdə Ermənistanla Sülh sazişinin imzalanması və Zəngəzur-Laçın dəhlizlərinin açılması sahəsində həlledici addımların atılması da "Heydər Əliyev İli"nə möhtəşəm töhfələr olacaqdır.

Ümumiyyətlə, "Heydər Əliyev İli" müstəqil Azərbaycanın müasir nəsilləri üçün görkəmli dövlət xadimi Heydər Əliyevin adına və ideallarına layiq şəkildə yaşamağa və işləməyə çağırış ili kimi də mühüm əhəmiyyətə malikdir.

**"Heydər Əliyev İli" müstəqil dövlətçiliyin, azərbaycançılıq idealının təntənəsi ili kimi xalqımızın yeni-yeni zəfərlərə imza atması ili olacaqdır.**

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın prezidenti,**
**Milli Məclisin deputatı, akademik**

# AMEA-da "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda elmi konfrans





**Dekabrın 7-də AMEA-nın Rəyasət Heyətində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım gününə həsr olunan "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda elmi konfrans keçirilib.**







Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AMEA-nın müşavirləri, YAP ərazi partiya təşkilatlarının nümayəndələri, həmçinin elmi müəssisə və təşkilatların baş direktorları iştirak ediblər.

Konfransdan öncə Ulu Öndər Heydər Əliyevin AMEA-nın Rəyasət Heyətinin binasında yerləşən büstü önünə tər güllər düzülüb.

Elmi konfransda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Müstəqillik yollarında: Heydər Əliyevdən - İlham Əliyevə" mövzusunda giriş nitqi ilə çıxış edib. Akademik qeyd edib ki, adı və xidmətləri Azərbaycanın yarım əsrlik tarixi ilə üzvi surətdə bağlı olan Ulu Öndər Heydər Əliyev bütün həyatı boyu daim dövləti, xalqını düşünüb, ölkəmizin çiçəklənməsi və dünyanın aparıcı dövlətlərindən birinə çevrilməsi istiqamətində tarixi addımlar atıb. Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Ümummilli Lider hələ 1967-ci ildə kommunist ideologiyasının sərt dövrlərində, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsində çalışarkən milli təfəkkürlü, Azərbaycançılıq ideologiyasına sahib kadrları qoruyub saxlayıb və xalqımızı gələcək dövlət müstəqilliyinə hazırlayıb. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilməsi ilə Azərbaycan xalqının zəngin dövlətçilik və idarəetmə qabiliyyətinə malik olduğunu bütün dünyaya göstərmiş oldu.

Ümummilli Liderin Azərbaycan SSR-ə rəhbərlik edərkən onu İttifaq Respublikalarının ən son sıralarından SSRİ-nin inkişaf etmiş respublikası səviyyəsinə qaldırdığını deyən akademik İsa Həbibbəyli görkəmli dövlət xadiminin müstəqil Azərbaycanı isə parçalanmaq təhlükəsindən xilas etdiyini, ölkəmizin müstəqilliyini möhkəmləndirdiyini və respublikada siyasi sabitliyi təmin etdiyini bildirib. Vurğulayıb ki, zəngin idarəetmə təcrübəsinə sahib olan Ulu Öndər qısa müddətdə müstəqil Azərbaycanın inkişafı naminə əməli addımlar atıb, tarixi əhəmiyyətə malik "Əsrin müqaviləsi" imzalanıb, hərbi, iqtisadi, siyasi, elmi, ədəbi, mədəni sahələrdə bir çox layihələr həyata keçirilib.

AMEA rəhbəri qeyd edib ki, Ümummilli Liderin əsasını qoyduğu ideya və strategiyalar, layihələr, Dövlət proqramları onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və çağırışlarından irəli gələrək zənginləşdirilib və həyata keçirilib. Bildirib ki, məhz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyanın nüfuzlu və inkişaf etmiş dövlətlərindən birinə çevrilib, beynəlxalq təşkilatlarda dövlətimizin və onun Liderinin sözünə önəm verilir, Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edir və Azərbaycanın iştirakı və icazəsi olmadan regionda heç bir layihə həyata keçirilmir.

Diqqətə çatdırıb ki, ölkəmizdə İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf layihələrində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir və öz zəngin təcrübəsi ilə bu inkişafa öz əməli töhfələrini verir.

Elmi konfransda, o cümlədən AMEA-nın müşavirləri, akademiklər Yaqub Mahmudov "Heydər Əliyevin Azərbaycançılıq konsepsiyası və müasir dövr", Möhsün Nağısoylu "Heydər Əliyev və Azərbaycan dili", Adil Qəribov "Heydər Əliyev və Azərbaycan elmi" və Qərib Məmmədov "Heydər Əliyev və Azərbaycanda aqrar islahatlar" mövzusunda məruzələrlə çıxış ediblər. Çıxışlarda Ümummilli Liderin Azərbaycançılıq ideologiyasının birləşdirici gücündən, dahi liderin Azərbaycanın tarixi şəxsiyyətlərinin irsinin, eləcə də milli kadrların yetişdirilməsi və qorunması sahəsindəki xidmətlərindən, Azərbaycan dilinin dövlət dilinə çevrilməsi, zənginləşməsi və qorunması istiqamətindəki Fərman və sərəncamlarından, Azərbaycan elminə və ziyalısına göstərdiyi diqqət və qayğıdan, eləcə də ölkəmizdə aqrar sahənin inkişafında həyata keçirdiyi addımlardan danışılıb.

Həmçinin tədbirdə Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov Ulu Öndərlə bağlı xatirələrini bölüşüb.

Konfransa yekun vuran akademik İsa Həbibbəyli Ümummilli Liderlə keçirdiyi görüşlərdən danışıb, bu gün cənab Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev ideyalarını, Azərbaycanın dövlətçilik ənənələrini yaşatdığını, zənginləşdirdiyini bildirib və qeyd edib ki, ölkəmizdə siyasi varisliyin təmin olunması Azərbaycanın gələcəyinin əmin əllərdə olmasının göstəricisidir və xalqımız, alimlərimiz dövlət başçısının həyata keçirdiyi bütün layihələri dəstəkləyir, bu işdə canla-başla iştirak edirlər.

# Heydər Əliyev dərsləri: elm, gender və müasir reallıqlar




**Dekabrın 5-də AMEA-nın Əsas binasında "Heydər Əliyev dərsləri: elm, gender və müasir reallıqlar" mövzusunda elmi konfrans keçirilib.**

Konfrans AMEA-nın Rəyasət Heyəti və AMEA-nın Qadınlar Şurasının birgə təşkilatçılığı ilə baş tutub.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli dövlət siyasətinin həyata keçirilməsində yaxından iştirak edən əsas mərkəzlərdən biri kimi AMEA-nın bütün institut və təşkilatlarında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyasının ərazi təşkilatlarının fəaliyyət göstərdiyini bildirib.

Azərbaycanın müstəqil dövlətçilik ideologiyasının tarixi qaynaqlarından, inkişaf mərhələlərindən danışan AMEA prezidenti əlavə edib ki, bu baxımdan Akademiyanın alimlərinin əsas vəzifəsi müstəqil Azərbaycan dövlətinin müəyyən etdiyi siyasi xəttin, formalaşdırdığı ideologiyanın və seçdiyi hədəflərin inkişaf etdirilməsinə elmin dəstəyini təmin etməkdən ibarətdir.

Akademik İsa Həbibbəyli Ulu Öndərin Azərbaycançılıq ideologiyasını hələ Sovet dövründə Azərbaycana rəhbərlik edərkən müəyyən etdiyini, dahi şəxsiyyətin sarsılmaz iradəsi və ciddi səyləri ilə 1978-ci il Azərbaycan SSR-nin Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsinin daxil edildiyini diqqətə çatdırıb. Bildirib ki, həmin illərdə Azərbaycanın bir çox şair və yazıçılarının dünyada və keçmiş ittifaqda tanıdılmasına nail olmaq üçün onlara fəxri adlar verilmiş, həmçinin Nizaminin, Nəsiminin, M.F.Axundzadə və başqa görkəmli şəxsiyyətlərin yubileyləri geniş miqyasda qeyd olunmuşdur.

"Azərbaycan xalqı və dili anlayışları Ulu Öndərin ölkədə sabitlik və birlik yaratmaq üçün kəşf etdiyi dəyərlərdəndir", - deyə qeyd edən AMEA rəhbəri bildirib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev dünyanın yeni reallıqlarına, ölkədə gedən mövcud proseslərə uyğun olaraq azərbaycançılıq ideyalarını yeni keyfiyyətdə daha da zənginləşdirir və möhkəmləndirir. Bu baxımdan Heydər Əliyev epoxası İlham Əliyev erası ilə uğurla davam etdirilir.

AMEA prezidenti əlavə edib ki, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda qazanılmış Qələbə tariximizin ən böyük zəfərlərindəndir. Alim vurğulayıb ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da Qarabağa səfərlərinin böyük əksəriyyətində ölkə Prezidenti ilə çiyin-çiyinə iştirak edərək Qarabağın yeni tarixinin yazılmasında öz imzasını atmışdır.

AMEA-nın Rəyasət Heyəti və Qadınlar Şurasının birgə təşkilatçılığı ilə keçirilən ictimai-elmi konfransın önəminə toxunan akademik İsa Həbibbəyli cari ayda Akademiyada Ulu Öndərin çoxsaylı anım tədbirlərinin keçiriləcəyini də diqqətə çatdırıb.

Daha sonra AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova "Heydər Əliyev və Azərbaycan təbiəti" mövzusunda məruzə ilə çıxış edib. O, regionda və dünyada təbiətin, canlı həyatın xilası, qorunması və gələcək nəsillərə daha yaxşı vəziyyətdə ötürülməsində elmli, uzaqgörən, qətiyyətli, cəsur, siyasi və mənəvi liderə hər zaman ehtiyac duyulduğunu bildirib. Bu baxımdan Heydər Əliyev kimi Ümummilli Liderə malik olmuş Azərbaycan xalqının xoşbəxt xalq olduğunu vurğulayıb.

Vitse-prezident Azərbaycanın elmi ictimaiyyətinin, o cümlədən qadın alimlərimizin ətraf mühitin qorunması, ekoloji və bioloji təhlükəsizliyin təmin edilməsi də daxil olmaqla bütün istiqamətlərdə Ümummilli Liderin əsasını qoyduğu və cənab Prezidentin uğurla davam və inkişaf etdirdiyi siyasi kursu tam dəstəklədiklərini qeyd edib.

AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Göhvər Baxşəliyeva "Heydər Əliyev və elm" mövzusunda məruzəsini təqdim edib. Alim bildirib ki, Ulu Öndər Heydər Əliyev istər sovetlər dönəmində, istərsə də müstəqillik dövründə elmimizin inkişafı məqsədilə bir sıra mühüm Fərman və sərəncamlar imzalayıb, Azərbaycan elmi daim onun diqqət mərkəzində olub.

"Heydər Əliyev müasir və müstəqil Azərbaycanın banisi, yaradıcısı, qurucusudur", - deyə bildirən Göhvər Baxşəliyeva Ulu Öndərin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasətinin bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Tədbirdə, həmçinin AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə "Heydər Əliyev və Yeni Azərbaycan Partiyasının gender meyarları" və Dilçilik İnstitutunun Qadınlar Təşkilatının sədri, fil.ü.f.d., dosent Şəbnəm Həsənli "Heydər Əliyev və ana dili" mövzusunda məruzələrlə çıxış ediblər.



# Ulu öndər Heydər Əliyevin elm haqqında müdrik fikirləri

**Ulu öndər Heydər Əliyev işıqlı təfəkkur, çevik düşüncə, müdrik zəka sahibi idi. Dahi liderin müdrik fikirləri onun müxtəlif məsələlərə həsr olunmuş rəsmi çıxışlarından, müsahibələrindən, məktublarından seçmələrdir. Bu fikirlər Ulu Öndərin həyat təcrübəsindən xəbər verməklə yanaşı, müasir Azərbaycanın gerçəkliyini, xalqımızın mədəni-mənəvi və intellektual həyatını əks etdirir. Yığcamlığı, dəqiqliyi, aydınlığı ilə seçilən bu fikirlər konkret dövrdə, konkret hadisələrlə bağlı söylənilsə də, ümummilli, ümumbəşəri məna kəsb etməkdədir.**

- Təsadüfi deyil ki, Azərbaycanda elə bu gün də, on il də, iyirmi il də, otuz il də bundan öncə böyük alimlərin, elmlə məşğul olan insanların, akademiklərin, professorların, unuversitetlərdə dərs verənlərin, yaxud Elmlər Akademiyasında, elmi-tədqiqat instutlarında çalışanların çoxu öz həyat yollarını Naxçıvanda başlayıblar.
- Azərbaycan dövlətinin ən yüksək elmi müəssisəsi respublikamızın Elmlər Akademiyasıdır. O, dövlətə məxsusdur. Azərbaycanın Milli Akademiyası respublikamızın dövlət müstəqilliyinə xidmət etməlidir.
- Biz hər bir elm adamını qiymətləndiririk, hər bir alimin elmimizə verdiyi töhfəni, xidməti qiymətləndiririk.
- Azərbaycanda elm XX əsrdə çox sürətlə inkişaf etmişdir.
- Xalqımız böyük istedada, elmi potensiala malikdir və bu nailiyyətlərimiz də dünya elminə özünə görə müəyyən töhfələr veribdir.
- Elmimizin gələcəyi gənclərin əlindədir.
- Akademiya bizim ən yüksək elm müəssisəmizdir, bütün elmin zirvəsində duran təşkilatdır.
- Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.
- Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.
- Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.
- Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.
- Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır.
- Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.
- Təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.
- Böyük siyasətlə, dövlət işi ilə məşğul olan şəxslər bəlkə də xüsusi elmi məqalələr, kitablar yazmırlar. Ancaq onların gündəlik ictimai-siyasi fəaliyyəti, böyük dövlət işinə rəhbərlik etməsi, dövlət əhəmiyyətli məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır.
- İnsanlar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qədim zamanlardan başlayaraq elm yüksək qiymətləndirilib və elmi kəşf etmiş dahilər insan cəmiyyətinin inkişafına imkan yaratmışlar.
- Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətmizdə hörmətə layiqdirlər.
- Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir.
- Müasir həyat və dünyanın gələcəyi insanlardan daha da çox bilik tələb edir.
- Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.
- İndi dünya mədəniyyət dünyasıdır. İntellektual dünyadır, elmi-texniki tərəqqi dünyasıdır. Azərbaycanın elmi-texniki tərəqqi səviyyəsini də inkişaf etdirmək üçün şübhəsiz ki, yüksək təhsilə, elmə nail olmalıyıq.
- Ali təhsil ocaqları, universitetlərimiz Azərbaycan mədəniyyətinin, elminin, milli mənəviyyatının zirvəsidir.
- Xalqımızın dünya elminə bəxş etdiyi töhfələrlə fəxr etməyə haqqı var.
- Hansı iqtisadiyyat olur-olsun elm inkişaf etməlidir.
- Elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik.
- Ümumi çətinliklər nə qədər çox olsa da, biz elmə, təhsilə daim qayğı göstərməliyik və elmin inkişafı üçün mövcud imkanlardan daha da çox istifadə etməliyik.
- Cəmiyyətdə müxtəlif adamlar olur, amma elm adamları müstəsna adamlardır. Onlar insanlara əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdırlar. Əlbəttə, bu insanlar ən böyük hörmətə layiqdirlər.
- Elmimiz, mədəniyyətimiz yaşamalı, inkişaf etməlidir.
- Müstəqil Azərbaycan Respublikasının böyük elmi, intellektual potensialı var.
- Biz öz elmimizlə, ali təhsilimizlə fəxr edə bilərik.

# Şuşaya həsr olunmuş kitabların təqdimatı

**Beynəlxalq Muğam Mərkəzində "Şuşa - Zirvədən uca" və "Şuşa - Qarabağın ulduzu" adlı kitabların təqdimatı keçirilib.**



Təqdimat mərasimində mədəniyyət naziri Anar Kərimov, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru Xalq artisti Fərhad Bədəlbəyli, Milli Məclisin deputatı Qənirə Paşayeva, Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli və digər mədəniyyət xadimləri, media mənsubları iştirak ediblər.

Mədəniyyət naziri Anar Kərimov sözügedən kitabların önəmindən danışıb: "Bu il Şuşa ilə bağlı bu cür kitabların nəşri ölkəmizdə cənab Prezident tərəfindən "Şuşa İli"nin elan edilməsi ilə bağlıdır. Şuşa şəhəri Azərbaycan üçün, onun mədəniyyəti üçün olduqca əhəmiyyətli və müqəddəsdir. Hansı ki, bu torpağı və ümumilikdə Qarabağı ordumuzun qanı-canı bahasına, cənab Prezidentimizin güclü siyasəti nəticəsində azadlığa qovuşdurduq. Şuşanın mədəni mərkəz kimi, müqəddəs məkan kimi təbliğinin kitablarda əksini tapması vacib və əhəmiyyətlidir".

Nazir çıxışından sonra "İrs" Nəşriyyat Evinin rəhbəri Musa Mərcanlını "Şuşa-270" döş nişanı ilə təltif edib.

Daha sonra çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli kitabları "Şuşa İli"nə töhfə kimi qiymətləndirib: "Bu kitab, sözün əsl mənasında, Şuşanın tarixi pasportudur. Kitabda Şuşanın tarixi, mədəni dünyası özünü göstərməkdədir. Kitabda, həmçinin Şuşanın Azərbaycan elminə, incəsənətinə bəxş etdiyi şəxsiyyətlər haqqında dəqiq informasiyalar da yer almaqdadır. Kitabdakı arxiv materialları, nadir sənədlər isə, dediyimiz kimi, bu ilə töhfədir".

Çıxışlar bitdikdən sonra təqdimat mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, Azərbaycan-ingilis və Azərbaycan-rus dillərində hazırlanan kitablarda Şuşa şəhərinin qədim tarixi, mədəni həyatı, maddi-mədəni abidələri, işğal dövründə məruz qaldığı dağıntılar və azadlığa qovuşması zəngin mətn və fotofaktlarla təqdim olunub.

# Şuşa dünya mədəniyyət mərkəzləri kontekstində



**Dekabrın 5-də AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş "Şuşa-270: dünya mədəniyyət mərkəzləri kontekstində" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Əvvəlcə "Şuşa İli" çərçivəsində Tarix İnstitutunda hazırlanmış nəşrlərdən və müəssisənin əməkdaşı Cəmaləddin İsmayılovun müəllifi olduğu rəsm əsərlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli konfrans iştirakçılarını Akademiyanın Rəyasət Heyəti adından salamlayıb. Qeyd edib ki, cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruğu" və qəhrəman Azərbaycan Ordusunun şücaəti sayəsində tarixi Zəfərlə başa çatan Vətən müharibəsi Azərbaycanın çoxəsrlik tarixinin ən mühüm və nadir hadisəsidir. Akademik İsa Həbibbəyli vurğulayıb ki, ötən iki il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında aparılan geniş quruculuq işlərinin məntiqi davamı olan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" müstəqil Azərbaycan Respublikasının ən möhtəşəm dövlət proqramlarından birincisidir.

AMEA rəhbərinin sözlərinə görə, 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi Qarabağda başlayan yeni həyatın, bütün sahələrin, eləcə də elmin dönüşünü sürətlə həyata keçirməyə meydan açan mühüm dövlət sənədidir. Qarabağa Böyük Qayıdış, "Şuşa İli" və Şuşa şəhərinin 270 illiyi ilə bağlı AMEA-da bir çox yerli və beynəlxalq konfransların keçirildiyini, monoqrafiya və kitabların çap edildiyini deyən akademik İsa Həbibbəyli Akademiyanın ölkə başçısının müvafiq sərəncamları işığında özünün elmi "Şuşanamə"sini hazırlamasının vacibliyini vurğulayıb.

Diqqətə çatdırıb ki, bu günlərdə Akademiyada Qarabağa və "Şuşa İli" çərçivəsində keçirilən tədbirlərin yekunlarına həsr olunan AMEA-nın Rəyasət Heyətinin genişləndirilmiş iclası baş tutacaq: "Cənab Prezident İlham Əliyevin Şuşa şəhərini dünyanın ən gözəl şəhərlərindən birinə çevirməklə bağlı çağırışları bizim tədqiqatlarımızda elmi əsasını tapmalıdır. Qarabağda icra edilən geniş quruculuq işləri ölkə başçısı İlham Əliyevin iradəsi ilə həyata keçirilən Böyük Qayıdışın epoxasıdır. Qarabağa, Şuşaya yenidən qayıdış Akademiyanın qarşısında duran əsas vəzifələrdəndir. Birinci və İkinci Qarabağ müharibələrinin tarixi salnaməsi elmi əsaslarla yazılmalıdır. Ötən iki il ərzində Qarabağın, Şuşanın toponimləri, folkloru, ədəbi-mədəni mühiti, arxeologiyası, etnoqrafiyası, tarixi, coğrafiyası, iqlim xüsusiyyətləri və s. istiqamətlərdə AMEA-da respublika və beynəlxalq səviyyəli konfranslar keçirilib, beynəlxalq ictimaiyyət tədbirlərə cəlb edilib. Bu, ölkə başçısının Şuşa ilə bağlı müvafiq sərəncamlarına Akademiyanın qurumlarının dəstəyinin ifadəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyasına elmin dəstəyinin təmin edilməsi bizim əsas vəzifələrimizdəndir".

Akademik çıxışının sonunda AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda professor Kərim Şükürovun baş direktorluğu ilə aparılan tədqiqatları yüksək qiymətləndirib, bu müəssisənin üzərinə Qarabağın elmi salnaməsinin hazırlanması, eləcə də Böyük Qayıdışın epoxasının yaradılmasında istiqamətləndirici funksiyasının düşdüyünü söyləyib.

Sonra Şuşa şəhərinin 270 illiyinə həsr olunan videoçarx nümayiş etdirilib.

Beynəlxalq konfransda, həmçinin AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürovun "Şuşanın erməni tarixşünaslığı: saxtakarlıq və işğalçılıq ideologiyası", AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Şuşa: Azərbaycanın mədəniyyət paytaxtı" və Tarix İnstitutunun şöbə müdiri, akademik Nərgiz Axundovanın "Şuşanın məhəllələri" mövzusunda məruzələri dinlənilib.

Konfrans öz işini "Şuşanın tarixi. Sosial-siyasi və dini həyatı", "Ermənilərin Şuşada törətdiyi soyqırımları. Tarix və mədəni irsə qarşı erməni vandalizmi", "Şuşanın mədəni həyatı", "Şuşa beynəlxalq aləmdə. Qardaşlaşmış şəhərlər" və "Şuşa Bəyannaməsi" adlı bölmə iclasları ilə davam etdirib.

Dekabrın 6-dək davam edən konfransda Türkiyə, Ukrayna, Polşa, Albaniya və s. ölkələrdən olan alimlərin 40-dan çox məruzəsi dinlənilib.

# Akademik Şahin Mustafayevə Özbəkistanın "Dostluq" ordeni təqdim olunub



**Dekabrın 2-də AMEA-nın Rəyasət Heyətində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin müvafiq Fərmanı ilə təltif olunan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevə "Dostluq" ordeninin təqdimolunma mərasimi keçirilib.**

Tədbirdə çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, bu gün Akademiyanın bir sıra elmi müəssisə və təşkilatları Özbəkistanın aidiyyəti institutları ilə sıx əməkdaşlıq edir, birgə konfranslar, seminarlar həyata keçirir, monoqrafiya və kitablar ərsəyə gətirirlər. Dövlətlərimiz arasındakı dostluq, qardaşlıq münasibətlərinin Türk dünyası üçün mühüm əhəmiyyət kəsb etdiyini və dünya birliyi üçün nümunə olduğunu deyən akademik İsa Həbibbəyli qeyd edib ki, əlaqələrimizin yüksək səviyyədə olması Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin açdığı geniş əməkdaşlıq imkanlarından irəli gəlir. Akademik vurğulayıb ki, Prezident İlham Əliyevin 2022-ci ildə 3 dəfə Özbəkistana səfər etməsi, qardaş ölkədə Azərbaycan Prezidentinə göstərilən diqqət ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasının başlıca göstəricisidir: "Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycanın 3 tanınmış alimini yüksək mükafatla təltif etməsi və Prezident İlham Əliyevin 3 özbək alimi mükafatlandırması ölkələrimiz arasındakı elmi, ədəbi, mədəni əlaqələrin dövlət başçılarımız tərəfindən yüksək qiymətləndirilməsinin ən bariz nümunəsidir. Bu münasibətlə Akademiyamız və alimlərimiz adından Prezident İlham Əliyevə və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə dərin minnətdarlığımızı bildiririk".

Akademik Şahin Mustafayevin Özbəkistanın "Dostluq" ordeni ilə təltif olunmasının onun bu illər ərzində Azərbaycan-Özbəkistan arasında elmi, mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsindəki xidmətlərinin nəticəsi olduğunu deyən AMEA rəhbəri vurğulayıb ki, Şahin Mustafayev 6 il Səmərqənddə UNESCO-nun nəzdində Beynəlxalq Mərkəzi Asiya Tədqiqatları İnstitutunun direktoru vəzifəsində çalışıb, indi isə fəaliyyətini Astanada Beynəlxalq Türk Akademiyasının prezidenti kimi davam etdirir.

Akademik İsa Həbibbəyli, eyni zamanda ölkələrimiz arasında elmi əlaqələrin inkişafında Özbəkistanın Azərbaycandakı səfirliyinin böyük rolu olduğunu, mütəmadi olaraq onların iştirakı və birgə təşkilatçılığı ilə Akademiyada, xüsusilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda konfransların keçirildiyini, kitab və monoqrafiyaların hazırlandığını söyləyib.

AMEA rəhbəri çıxışının sonunda akademik Şahin Mustafayevə Beynəlxalq Türk Akademiyasının prezidenti kimi ölkəmizin Türk dünyası ilə əlaqələrinin dərinləşməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

Sonra Özbəkistanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov çıxış edərək AMEA-nın Rəyasət Heyətində olmaqdan məmnunluğunu dilə gətirib. 2022-ci ilin ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələri baxımından səmərəli olduğunu deyən Bahrom Aşrafxanov Azərbaycan Prezidenti İlham Əliyevin cari ildə 3 dəfə Özbəkistana səfər etdiyini xatırladıb. Həmçinin qeyd edib ki, il ərzində Azərbaycan-Özbəkistan elmi, ədəbi, mədəni əlaqələri yeni səviyyəyə yüksəlib. Akademik İsa Həbibbəylinin ölkələrimiz arasında elmi, ədəbi əlaqələrin zənginləşməsinə mühüm töhfələr verdiyini bildirən səfir onu Akademiyanın prezidenti seçilməsi münasibətilə təbrik edib, eləcə də AMEA-nın müəssisələri ilə birgə tədbirlər keçirməkdən məmnun olduqlarını deyib. Eyni zamanda gələcəkdə akademik İsa Həbibbəylinin rəhbərliyi ilə birgə böyük layihələrin həyata keçiriləcəyinə inamını ifadə edib.

Akademik Şahin Mustafayevi Beynəlxalq Türk Akademiyasının prezidenti seçilməsi münasibətilə də təbrik edən səfir diqqətə çatdırıb ki, Prezident Şavkat Mirziyoyevin 30 avqust 2022-ci il tarixli Fərmanına əsasən, Ş.Mustafayev Özbəkistanın "Dostluq" ordeni ilə təltif olunub. Bahrom Aşrafxanov akademik Şahin Mustafayevə gələcək fəaliyyətində uğurlar arzulayıb, onun Azərbaycanla Türk dünyası və Azərbaycanla Özbəkistan arasında elmi, mədəni əlaqələrin zənginləşməsinə öz töhfəsini verəcəyini söyləyib.

Səfir daha sonra akademik Şahin Mustafayevə Özbəkistanın "Dostluq" ordenini təqdim edib.

Tədbirdə çıxış edən akademik Şahin Mustafayev ali mükafata görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə dərin minnətdarlığını bildirib. Qeyd edib ki, Səmərqənddə UNESCO-nun nəzdində Beynəlxalq Mərkəzi Asiya Tədqiqatları İnstitutunun direktoru vəzifəsində çalışan zaman Özbəkistanın bir çox qədim şəhərlərini ziyarət edib, qardaş özbək xalqının qonaqpərvərliyi və mədəniyyəti ilə yaxından tanış olub. Özbəkistanda Azərbaycan ədəbiyyatına və mədəniyyətinə münasibətin yüksək səviyyədə olduğunu bildirən Ş.Mustafayev vurğulayıb ki, bu münasibətlərin qurulmasında özbək tarixşünaslığına mühüm töhfələr vermiş akademik Ziya Bünyadovun mühüm rolu olub.

Həmçinin bu gün Prezidentlər İlham Əliyev və Şavkat Mirziyoyevin yüksək dostluq münasibətlərinin ölkələrimiz arasında əlaqələri yeni müstəviyə qaldırdığını bildirib. Alim Beynəlxalq Türk Akademiyasının prezidenti kimi bundan sonra da Özbəkistanla elmi əlaqələrin zənginləşməsinə töhfə verəcəyini söyləyib.

Tədbirdə, o cümlədən tarix elmləri doktorları Solmaz Rüstəmova-Tohidi və İradə Bağırova çıxış edərək akademik Şahin Mustafayevin zəngin elmi-təşkilati fəaliyyətindən danışıb, ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

# "Müasir Azərbaycan dövlətinin banisi və qurucusu" mövzusunda elmi sessiya

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Müasir Azərbaycan dövlətinin banisi və qurucusu" mövzusunda elmi sessiya keçirilib.**



Tədbirin əvvəlində Şərqşünaslıq İnstitutunun əməkdaşları Ulu Öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

İclası giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva Ulu Öndərin Azərbaycan xalqının həyatında oynadığı böyük roldan danışıb. Akademik G.Baxşəliyeva Ümummilli Liderin xalqımızın tarixinə gördüyü misilsiz işlərlə böyük qurucu şəxsiyyət kimi düşdüyünü qeyd edib. G.Baxşəliyeva Ulu Öndər Heydər Əliyevin həm sovet dövründə respublikamıza rəhbərliyi zamanı, həm də müstəqillik illərində ölkə prezidenti kimi Azərbaycanda böyük iqtisadi inkişafa nail olduğunu vurğulayıb.

G.Baxşəliyeva Heydər Əliyevin ölkə həyatının bütün sahələrinə, o cümlədən elmə göstərdiyi diqqətdən danışıb. İnstitut rəhbəri Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdanda, 1993-cü ildə birinci görüşünü məhz Elmlər Akademiyasında Azərbaycan ziyalıları ilə keçirdiyini qeyd edib.

Heydər Əliyevin liderlik keyfiyyətlərinin dünya miqyasında qəbul olunduğunu deyən Gövhər Baxşəliyeva, onun siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edib. G.Baxşəliyeva Heydər Əliyev məktəbi keçmiş cənab Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi xarici siyasətin Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdə mühüm rolu olduğunu deyərək, dövlət başçımızın məqsədyönlü xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artdığını, ölkəmizin söz sahibi olan qüdrətli dövlətə çevrildiyini və bu mövqeyə çatmaqda Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xidmətlərinin əvəzsiz olduğunu bildirib.

Elmi sessiyada institutun Təhsil şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Lalə Bayramova "Heydər Əliyevin elm və təhsilin inkişafında rolu" mövzusunda məruzə edib. Ulu Öndərin 90-cı illərdə yenidən hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi elm və təhsildə də dirçəlişin baş verdiyini deyən L.Bayramova Ümummilli Liderin bu sahələrə xüsusi həssaslıqla yanaşdığını və daim qayğı göstərdiyini vurğulayıb.

İnstitutun Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə "Ulu Öndərin qələbəmiz üçün verdiyi ümidlər" mövzusunda məruzə edib. S.Bayramzadə məruzəsində Heydər Əliyevin yenidən hakimiyyətə gəlməklə Azərbaycan dövlətçiliyini qorumaqla yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşməsinin əsasını qoyduğunu qeyd edib. Ulu Öndərin Azərbaycanın azadlığı və bütövlüyünün bərpası yolunda işləyib hazırladığı və həyata keçirdiyi həm daxili, həm də xarici siyasətin uğurla nəticələnəcəyinə inandığını deyən məruzəçi, onun Qarabağın azad ediləcəyinə inandığını və bu inamı hər bir vətəndaşa, xüsusilə də yurd-yuvalarına dönmək ümidlərini itirmiş məcburi köçkünlərə təlqin etdiyini bildirib. S.Bayramzadə Ulu Öndərin 1994-cü ilin fevralında Böyük Britaniyanı Kral Akademiyasında, həmin ilin iyununda İran səfərində, 1996-cı ilin mayında Şuşa və Laçın rayonlarının sakinləri ilə görüşlərdə və bir sıra başqa tədbirdə söylədiyi xalqımızın qələbəsinə ümid verən fikirləri diqqətə çatdırıb.

İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov "Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın iqtisadi inkişafı" mövzusunda məruzə edib. Ulu Öndərin Azərbaycana hakimiyyətə yenidən qayıdışı ərəfəsində ölkədəki siyasi, iqtisadi vəziyyət və hakimiyyət böhranından danışan N.Məmmədov Ümummilli Liderin qayıdışından sonra baş verən iqtisadi dəyişikliklərdən, güclü iqtisadiyyata və sosial rifaha hesablanmış neft siyasətindən, Azərbaycan iqtisadiyyatına cəlb edilən böyük investisiyalardan danışıb.

Sonda məruzələr ətrafında müzakirələr aparılıb.

# Azərbaycan və Türkiyə alimlərinin əməkdaşlığı genişlənir

**Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İbrahim Quliyevin və İstanbul Texniki Universitetinin (İTU) professoru Sedat İnanın 1997-ci ildən "Deep Petroleum occurrences in the Lower Kura Depression, South Caspian Basin, Azerbaijan: An organic geochemical and basin modeling study" ("Hövzə modelləşdirilməsi əsasında Azərbaycan, Cənubi Xəzər hövzəsinin, Aşağı Kür çökəkliyinin dərin qatlarda karbohidrogenlərin üzvi geokimyəvi tədqiqatı") layihəsi ilə başlayan və artıq 25 ildir ki davam edən məhsuldar əməkdaşlığının daha bir elmi nəticəsi əldə olunub.**



Akademik İbrahim Quliyevin elmi məktəbinin yetirməsi, gənc alim Rəqsanə Əsgərova bir neçə il əvvəl alimin rəhbərliyi ilə "Hövzə modelləşdirilməsi texnologiyası əsasında Aşağı Kür çökəkliyinin karbohidrogen potensialının qiymətləndirilməsi" mövzusunda dissertasiya müdafiə edib. Bunun davamı olaraq İstanbul Texniki Universitetinin professoru Sedat İnanın rəhbərliyi, akademik İbrahim Quliyevin elmi dəstəyi ilə İTU məzunu Muhammed Namazlı "A study of Mud Volcano Formation by Basin Modeling in the Lower Kura Depression, South Caspian Basin, Azerbaijan" ("Hövzə modelləşdirilməsi əsasında Azərbaycan, Cənubi Xəzər hövzəsinin Aşağı Kür çökəkliyində palçıq vulkanlarının formalaşmasının tədqiqi") mövzusunda magistr dissertasiyasını İstanbulda, İTU-da uğurla müdafiə edib.

Tədqiqat işində AMEA-da həyata keçirilmiş geokimyəvi analizlərdən, tərtib olunmuş geoloji profil kəsilişlərindən, ərazinin xəritələrindən geniş istifadə olunaraq Aşağı Kür çökəkliyində palçıq vulkanları tədqiq olunub, "PetroMod", "GOGAD" proqram təminatları tətbiq olunmaqla 1D, 2D, 3D ölçülü geoloji modellər qurulub, palçıq vulkanlarını yaradan yeni faktorlar və mexanizmlər öyrənilib.

Dissertasiyanın onlayn rejimdə keçirilən müdafiəsində fəxri qonaq qismində akademik İbrahim Quliyev, İstanbul Texniki Universitetinin professorları Sedat İnan, Kadir Eriş və Hakan Hoşgörməz, magistrin elmi rəhbəri, y.e.ü.f.d. Rəqsanə Əsgərova iştirak ediblər. Yerinə yetirilən elmi iş komissiya üzvləri tərəfindən yüksək qiymətləndirilib, prof. Sedat İnan tədqiqatın ərsəyə gəlməsi üçün göstərdiyi elmi və mənəvi dəstəyə görə akademik İbrahim Quliyevə dərin minnətdarlığını bildirib.

AMEA və İTU arasında gələcək birgə elmi layihələrin müzakirəsinin gedişində bu elm ocaqlarının əməkdaşlığının iki ölkə arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətləri zəminində daha da dərinləşəcəyinə, Türk dünyası üçün elmi kadrların hazırlanmasında əhəmiyyətli olacağına əminlik ifadə edilib.

# Alimlər STEAM Azərbaycan Festivalında təqdim olunan layihələrlə tanış olublar

**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, İdarətmə Sistemləri İnstitutunun baş direktoru, akademik Əli Abbasov, həmin institutun icraçı direktoru, AMEA-nın müxbir üzvü Əminağa Sadıqov, Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev, Biofizika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Oktay Qasımov və Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qeylani Pənahov Bakı Ekspo Mərkəzində olublar.**



Alimlər Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2022) çərçivəsində keçirilən yarışların gedişatı ilə tanış olub, iştirakçılara uğurlar arzulayıblar.

Festival çərçivəsində təşkil edilən "İnnovativ layihələr" sərgisi barədə qonaqlara ətraflı məlumat verilib. Bildirilib ki, SAF 2022 10 kateqoriya üzrə yarış, həmçinin 1 kateqoriya üzrə innovativ layihələr sərgisi formatında təşkil edilib. Beynəlxalq festivalda ümumilikdə 350 komanda üzrə 1312 nəfər iştirak edir. Onlardan 127-si 7 xarici ölkəni təmsil edir.

Qeyd edək ki, festival dekabrın 9-dək davam edəcək. 2019-cu ildən Elm və Təhsil Nazirliyi tərəfindən tətbiqinə başlanılan STEAM (Science, Technology, Engineering, Art və Math) layihəsinin əsas məqsədi tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan təhsilalanların müəyyənləşdirilməsi, eləcə də innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsidir.

# 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətin yekunları ilə əlaqədar hesabat iclası



**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mikrobiologiya İnstitutunun Elmi şurasının 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları ilə əlaqədar hesabat iclası keçirilib.**

Yığıncaqda AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Biologiya və Tibb Elmləri Bölməsinin Elmi Şurasının üzvləri akademik Məhərrəm Babayev, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov və AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, b.ü.f.d., dosent Esmira Əlirzayeva da iştirak ediblər.

Tədbiri akademik İradə Hüseynova açaraq Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ilə AMEA-nın tabeliyində olan bir sıra elmi müəssisə və təşkilatların, o cümlədən də Mikrobiologiya İnstitutunun Elm və Təhsil Nazirliyinə verilməsi ilə bağlı məsələyə toxunub, institutun yeni dövrdə fəaliyyətlərini uğurla davam etdirəcəyinə ümid etdiyini bildirib.

Sonra akademik İradə Hüseynova Mikrobiologiya İnstitutunun 2022-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına dair hesabatın təqdimatı üçün sözü müəssisənin baş direktoru, AMEA-nın müxbir üzvü Pənah Muradova verib.

Pənah Muradov Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və sərəncamlarının, Dövlət Proqramlarının icrası ilə əlaqədar görülən işlər barədə məlumat verib. O, Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nın 2-4-cü bəndinə müvafiq olaraq institutun "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın hazırlanmasında fəal iştirak etdiyini və bu işlərin hesabat ilində də davam etdirildiyini bildirib. Diqqətə çatdırılıb ki, 2022-ci ilin mövzu planına uyğun olaraq institutda 2 problem və 7 mövzu üzrə 7 iş 14 mərhələdə yerinə yetirilib. Natiq qeyd edib ki, hesabat dövründə yerinə yetirilən mövzular üzrə tədqiqatlar Azərbaycan Respublikasının müxtəlif, o cümlədən işğaldan azad olunmuş ərazilərindəki su, torpaq və meşə ekosistemlərinin mikro və mikobiotasının müxtəlif aspektlərdə qiymətləndirilməsinə həsr edilib.

Sonra Pənah Muradov tətbiq edilmiş və təsərrüfat müqavilələri əsasında görülmüş işlər haqqında məlumat verib. O qeyd edib ki, təsərrüfat hesablı müqavilə əsasında AR Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu ilə "Pomidor və xiyar sortlarının istixana üçün yüksək məhsuldar, əsas xəstəliklərə davamlı nümunələrinin seçilməsi və onların becərilməsi üçün innovativ metodların işlənib hazırlanması" mövzusunda iş 2022-ci ildə başa çatdırılıb və sifarişçi tərəfindən qəbul edilib.

Hesabat ilində institut əməkdaşlarının 72 elmi əsəri, o cümlədən 4 kitab və monoqrafiya (1-i xaricdə), 18 məqalə (16-ı xaricdə), 46 tezis (8-i xaricdə) dərc edilib. Məqalələrin 4-ü "Web of Science" bazasına daxil olan jurnallarda dərc edilib. Əməkdaşların elmi işlərinə 79 istinad edilib. Hesabat dövründə institutun beynəlxalq əlaqələri inkişaf edib, Qazaxıstan Respublikasının Çimkənd Universiteti və Özbəkistan EA-nın Mikrobiologiya İnstitutu ilə elmi əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bundan başqa, Xəzər Universiteti, Torpaqşünaslıq və Aqrokimya İnstitutu ilə də əməkdaşlıq haqqında müqavilələr bağlanıb.

Sonra institutun illik hesabatı ətrafında çıxışlar edilib, kadr hazırlığı, gənclərin elmə cəlb edilməsi, tədqiqatların keyfiyyətinin yüksəldilməsi, multidissiplinarlığın təmin olunması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AMEA-nın Rəyasət Heyəti aparatının Beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva çıxış edərək müəssisənin beynəlxalq əlaqələri, xarici fondlara layihələrin təqdim edilməsi, kadr hazırlığında xarici mərkəzlərlə əməkdaşlıq məsələlərinə toxunub.

Müzakirələrə yekun vuran akademik İradə Huseynova Araz və Kür, Oxçuçay və digər transsərhəd çayları, işğaldan azad edilmiş ərazilərlə bağlı tədqiqatların daha da genişləndirilməsinin vacibliyini bildirib, müvafiq məsələlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Sonda institutun hesabat ilindəki elmi və elmi-təşkilati fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Cəmiyyətdə kiberdayanıqlılıqla bağlı kompleks problemlər mövcuddur

**Son zamanlar dünyada gedən proseslər, hibrid, kiber, informasiya, texnoloji və çip müharibələri, "yaşıl cəmiyyət"in formalaşması, iqlim dəyişikliyi, təbii fəlakətlər, enerji, ərzaq və ekoloji təhlükəsizlik kimi qlobal problemlər kontekstində elmi ictimaiyyətin nümayəndələri tərəfindən əsas prioritetlər faktiki olaraq müəyyənləşdirilib.**



Kibertəhlükəsizlik sahəsində uşaqların internet mühitində informasiya təhlükəsizliyinin təmin olunması, onların internetdə zərərli kontentdən qorunması, kibertəhlükəsizlik mədəniyyətinin formalaşması və digər bu kimi bir sıra ciddi problemlər mövcuddur.

Bu barədə AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev elmi seminarda məlumat verib.

AMEA-nın vitse-prezidenti bu problemlər sırasında kiberdayanıqlılıq məsələlərinin də böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Onun sözlərinə görə, informasiya resurslarının təhlükəsizliyi ilə yanaşı, texnoloji sistemlərin, kritik infrastrukturların, nəqliyyat infrastrukturunun, enerji sistemlərinin, "ağıllı şəhər"lərin, bir sözlə sensorlara əsaslanan bütün texnologiyaların kiberdayanıqlılığı dedikdə, təhlükələrin mahiyyəti, növü və mənbəyindən asılı olmayaraq, müvafiq texnologiyaların funksionallığını təmin etmək üçün kompleks təhlükələrə qarşı mübarizəni özündə əks etdirən yeni bir anlayış nəzərdə tutulur. İstər iqtisadi, istər sosioloji, istərsə də texnoloji sistemlərin, bütövlükdə cəmiyyətin kiberdayanıqlılıqla bağlı kompleks problemləri mövcuddur ki, artıq institutda aparılan elmi tədqiqatlarda bu mövzuya xüsusi diqqət yetirilir, gələcək üçün yeni vəzifələr müəyyənləşdirilir, müvafiq sahədə kadr hazırlığı məsələləri diqqət mərkəzində saxlanılır.

# Şöbələrin illik hesabatı

**AR Elm və Təhsil Nazirliyinin Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun beynəlxalq laboratoriyaları, Həmkarlar təşkilatı, Gənc Alim və Mütəxəssislər Şurasının illik hesabatı olub.**



Molekulyar biomühəndislik beynəlxalq laboratoriyasının müdiri, AMEA-nın müxbir üzvü Tərlan Məmmədov, Bionanotexnologiya beynəlxalq laboratoriyasının müdiri, Rusiya Elmlər Akademiyasının müxbir üzvü Süleyman Allahverdiyev, Molekulyar biotexnologiya beynəlxalq laboratoriyasının böyük elmi işçisi Aytən Ağayeva, Hesablama struktur biologiyası beynəlxalq laboratoriyasının müdiri, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Qərib Mürşüdov cari ildə laboratoriyalarda görülən işlər, dərc olunan məqalələr və kadr hazırlığından bəhs ediblər.

İnstitutun Həmkarlar təşkilatının sədri, b.ü.f.d. Səadət Xudaverdiyeva il ərzində institut əməkdaşlarına edilən yardımlar haqqında məlumat verib. Sözügedən elmi müəssisənin Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nərgiz Bayramova gənclərin cari ildəki fəaliyyəti, dərc olunan elmi işlər, beynəlxalq və yerli konfranslarda iştirakından bəhs edib.

Sonda edilən çıxışlar ətrafında müzakirələr aparılıb, təkliflər verilib və hesabatlar qənaətbəxş hesab edilərək qəbul edilib.

# AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri beynəlxalq konqresdə

**1-3 dekabr 2022-ci il tarixlərində Rusiyanın Krasnodar diyarının Sirius qəsəbəsində Gənc Alimlərin Konqresi keçirilib.**




Beynəlxalq konqresdə Azərbaycanı AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri, kimya üzrə fəlsəfə doktoru Elmir Babayev təmsil edir.

Konqresin ilk günü tədbirin açılış mərasimi və Rusiya prezidenti Vladimir Putinin gənc alimlərlə görüşü ilə yadda qalıb.

Dekabrın 2-də, konqresin növbəti günündə baş tutan "Dünya elmi və texnoloji inkişaf üçün prioritetlər: 2030-cu ilə baxış" sessiyasında Elmir Babayev plenar məruzə ilə çıxış edib. O, məruzəsində yaradılan fürsət və çıxış üçün təqdim olunan platformaya görə təşkilatçılara minnətdarlığını bildirib. Müzakirəyə çıxarılan mövzunun dünyəvi prioritetlərdən biri olduğunu vurğulayan Elmir Babayev region gənclərinin də bu məsələyə töhfələrinin vacibliyini qeyd edib. O, Beynəlxalq Elmlər Akademiyaları Assosasiyasının (MAAN) üzvü olan ölkələrin gənc alimlərinin cari ildə sıx əməkdaşlıq üçün çox vacib görüşlərdə bir araya gəldiyini və hazırda baş tutan konqresin də növbəti vacib əhəmiyyətli görüş olduğunu diqqətə çatdırıb.

"Əsas müzakirə subyektinə gəlincə, qeyd etməliyəm ki, ölkəmizdə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilib. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə, onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji vəzifələrin reallaşmasına yönəldəcəkdir. İdeologiyanın mərkəzində yaradıcı sahibkar, məhsuldar yatırımlar, innovasiyaları dəstəkləyən əqli mülkiyyətin inkişafı və rəqabətli bazarlar durur. Bu inkişaf modelinin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələdə (2022-2026-cı illər) sosial-iqtisadi inkişaf modelinin 2030-cu ilədək uğurla reallaşdırılması üçün təməl şərtlər işə salınacaqdır. 2027-2030-cu illəri əhatə edəcək ikinci mərhələdə isə bu təməl şərtlərin komplementarlığı şəraitində milli iqtisadiyyatın keyfiyyətcə yeni simasının yaradılmasına nail olunacaqdır", - deyə Elmir Babayev vurğulayıb.

Sonra "təmiz ətraf mühit və yaşıl artım ölkəsi üzrə strateji çərçivəyə" diqqət çəkərək ətraf mühitə dost sənayeləşməni təşviq etmək üçün prioritet istiqmətləri qeyd edib. Ölkəmizin 2030-cu ilə baxış mövqeyindən çıxış edən gənc alim davamlı və dayanıqlı enerji, həmçinin qida təminatı üçün region gənclərinin birgə layihələrə təmsil olunmasını təklif edib və bu istiqamətdə mövcud Azərbaycan-Belarus, Azərbaycan-Özbəkistan qrant modellərini nümunə götürərək digər müştərək qrantların təsis edilməsinin vacibliyini bildirib.

Daha sonra dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivəyə fokuslanaraq qadınların elmi-texniki yeniliklərə çıxışını yaxşılaşdırmaq üçün yalnızca qadınların iştirakı ilə layihə və müsabiqələrin həyata keçirilməsini təklif kimi səsləndirib.

Sessiyanın yekununda səslənən təkliflər ətrafında müzakirələr aparılıb və mühüm tezislər formalaşdırılıb.

# İranın anti-Azərbaycan təbliğatının mahiyyəti




**İran İslam Respublikasının dini-siyasi rəhbərliyi ölkəni zamanı keçmiş üsullarla idarə etməsi, sosial ədalət prinsiplərini və zəruri islahatları yaxına buraxmaması ilə nəhayət, geniş kütlənin, eləcə də milli hüquqları pozulmuş xalqların ciddi etirazları və davamlı direnişi ilə üzləşib. Hakim dairələr çoxluğun haqlı tələblərini dinləyb cavablandırmaq əvəzinə, sərt cəza tədbirlərinə əl atır, təbliğatda isə iğtişaşların səbəbini xarici düşmənlərin xalqı yoldan çıxarmağa çalışmasında axtarır.**

Düşmən kimi qələmə verilən ilk ölkələrdən biri isə İran əhalisinin böyük bir hissəsini təşkil edən 30 milyondan artıq türklərin 10 milyonluq soydaşlarının Şimalda yaşadığı müstəqil Azərbaycan dövlətidir. Bu saxta arqumentin əsasında dayanan isə məhz Azərbaycanın müstəqil ölkə, əhalisinin isə güneylilərlə eyni xalq olmasıdır. Nəinki İranda və Azərbaycanda, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar eyni xalqın, Azərbaycan türklərinin nümayəndələridir. 50 milyonluq bu nəhəg toplum hakim fars rejiminin nəzərində niyə qorxunc bir qüvvəyə çevrilib? Müstəqil Azərbaycan dövləti İranın hakim rejimi üçün niyə bu qədər təhlükəlidir?

**Tanınmış iranşünas mütəxəssis, AMEA Şərqşünaslıq İnstitutunun İran tarixi və iqtisadiyyatı şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Vidadi Mustafayevlə** bu suala cavab axtardıq. Müsahibimiz bildirdi:

- İranın hakim dini rejiminin məsuliyyətsiz və satqın mübəlliğlərinin illər boyu ölkəmizə qarşı səsləndirdikləri yalan və uydurmaları, son 2 ayda isə ara verməyən açıq düşmənçilik təbliğatını nəzərdın keçirib cavablandırarkən əvvəlcə çox vacib bir məqamı qeyd etmək lazımdır. İranın Azərbaycana qarşı total təbliğatı rejimin özü kimi ancaq yalan üzərində qurulub, çünki gerçək və ağlabatan bir əsas tapa bilmirlər.

İranın indiki rejimi Mehdi əfsanəsi ilə legitimləşdirilir. Belə ki, Mehdi və onun qayıdışı haqqında bəzi şiə ilahiyyatçılarının düzüb-qoşduqları nəzəriyyəyə əsasən, "zamanın sahibi"nin gələcəyinə qədər müsəlmanları ancaq onun vəkili olan bilikli fəqih idarə edə bilər. Mehdi və onun qayıdışı məsələsi müsəlmanların mütləq əksəriyyətini təşkil edən sünniməzhəblər tərəfindən qəbul edilmədiyi üçün həmin iddia siyasi hakimiyyətin legitimliyinin əsası ola bilməz və bunu iddia edənlərin bütün müsəlmanların adından danışmaq səlahiyyəti yoxdur.

Mehdinin vəkili və fəqih məsələsi İranın hakimiyyətpərəst ruhaniləri tərəfindən uydurulmuş yalandan başqa bir şey deyil. Yalnız hakimiyyət hərisi olan şiəməzhəb ruhanilər (o da azlıqda olanlar) belə bir əfsanə uydura bilərlər. Mehdinn vəkili qismində "rəhbər" adı ilə 40 ildən çox müddətdə hakimiyyətdə olan fəqihlərin "qulbeçələri" də onları qorumaq üçün ancaq yalan arxasında gizlənirlər.

Rejimi müdafiəyə qalxan Həsən Hanizadə adlı bir ekspert nə qədər canfəşanlıq etsə də, İranla bağlı ittihamların və mövcud problemlərin heç birini təkzib etməyə nail ola bilmir. Çünki yalanla doğrunu təkzib etmək mümkün deyil. Bu imanını danan, bununla dinə də bağlılığı olmadığını ortaya qoyan "şiəməzhəb ideoloq" İranda azərbaycanlıların, 30-35 milyonluq bir xalq kimi mövcudluğunu, Güney azərbaycanlıların ana dilində heç bir məktəbi olmadığını inkar edə bilərmi?

**- Həqiqət budur ki, İranda nəinki azərbaycanlıların ana dilində məktəbi yoxdur, həm də hakim rejim ölkənin əsas qanununun İran etnoslarına yarımçıq ana dili hüququ verən 15-ci maddəsinin reallaşdırılmasına indiyədək imkan verməmişdir.**

- Tamamilə doğrudur. Bütün dünyanın bildiyi bu həqiqətləri imanlı və əxlaqlı bir adam pərdələyə bilərmi? İranda bir ovuc ermeninin ana dilində məktəblərinin olması və onların rejim tərəfindən hərtərəfli qayğı ilə əhatə edilməsi fikrini təkzib etmək olarmı? Əlbəttə, yox! İran rejiminin son 30 ildə Ermənistana hərtərəfli yardım və dəstək göstərdiyi fikrinə etiraz etmək mümkündürmü? Qətiyyən yox!

Haqqında söz açdığım vicdanını satmış ekspert isə Azərbaycanın işğal altında olan ərazilərini 44 günlük Vətən müharibəsində azad etməyə başladığı gündən İranın ermənilərı dəstəkləmək üçün Azərbaycanın qarşısında "qırmızı cizgilər" çəkməsinə cidd-cəhdlə haqq qazandırmağa çalışır. Bədnam Həsən Hanizadə İranla bağlı bütün dünyada səslənən ittihamlara münasibət bildirmək əvəzinə, Azərbaycanın, guya bu ölkəni təhdid etməsi, Amerika, İsrail və Türkiyəyə arxalanaraq düşmən mövqe tutması kimi cəfəng iddialar irəli sürür.

Nəhayət, İranda son əsrdə, xüsusən İslam rejimi dövründə Azərbaycanla bağlı yaranan yanlış illüziyanın iki əsas komponentini xüsusi qeyd etmək lazımdır.

Birincisi, Azərbaycanın 2 əsr bundan əvvəl İran ərazisi olması arqumentləşdirilir. Yaxşı belədirsə, İran niyə bu ərazilər müstəmləkəyə çevrilib ağır zamanlar yaşayanda bircə dəfə də səsini çıxarmayıb? Azərbaycan xalqı Şimalda itirilimiş müstəqilliyini bərpa, 30 illik Qarabağ münaqişəsini isə təkbaşına həll edəndən sonramı ayılıb İran dövləti? Şimali Azərbaycan İran ərazisi imişsə, bəs, Ermənistan Qarabağı işğal edəndə bu dövlət niyə səsini çıxarmadı, nədən 30 illik işğal dövründə davamlı olaraq susdu? Ağayi Hanizadə, bəlkə bu suallara bir saxta cavab uydurasan?!

Görünən budur ki, İranda panfarsist ideoloqlar, bir tərəfdən, İranın Şimali Azərbaycan iddiasını, digər tərəfdən, guya azərbaycanlıların İrana birləşmək meylini tez-tez gündəmə gətirərək özlərini aldatmaqla, özgələrin isə gözünə kül üfürməklə məşğuldurlar. Həqiqət budur ki, ərazi dövləti kimi İran Şimali Azərbaycan Rusiya tərəfindən işğal olunandan sonra formalaşmağa başlayıb. Bir milli, yəni fars hakimiyyətli dövlət kimi İran XX əsrin 20-ci illərindən formalaşmağa başayıb. Hər iki mənada Şimali Azərbaycan heç vaxt İran fars dövlətinin tərkibində olmayıb.

Burada onu da xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan (həm Şimali, həm də Cənubi) Sasani sulaləsinin hakimiyyəti (224-651) ərəblər tərəfindən ləğv edildkdən sonra heç vaxt farsların yaratdığı dövlətin tərkibində olmayıb. Çünki həmin vaxtdan XX əsrin əvvəllərinədək farslar indiki İran ərazisində heç bir dövlət yaratmayıblar. İndiki fars dövləti də onlara azərbaycanlılardan qalıb. Bu səxavətin müqabilində azərbaycanlılar son 1 əsrdə məhvə məhkum edilmişlər. 50 milyonluq bir xalqın 30-35 milyonluq kəsimini isə yox etmək mümkün olmamışdır.

İkincisi, azərbaycanlıların əksəriyyətinin İslamın şiə məzhəbinə mənsub olması əsas tutulur. İran teokratik şiə rejimi həmin amildən şiə azlığı olan müsəlman ölkələrin daxili işlərinə qarışmaq üçün istifadə edir. Amma bir şey unudulur. Hazırki İranın müstəqil Azərbaycana qərəzli və müdaxiləyönlü şiə baxışı yalnız İslam rejimi yaranandan meydana gəlmiş, ondan əvvəl, yeni qatı antitürk Pəhləvi rejimi zamanı da (1925-1979) belə bir yanaşma müşahidə edilməmişdir. Deməli, həmin amil iranlıların nəzərində keçici bir amil rolu oynayır.

**- Bunu yaxşı başa düşən azərbaycanlılar İran rejiminə həmin amildən öz çirkin niyyətlərini həyata keçirmək üçün istifadə etməyə imkan vermək istəmirlər.**

- Üstəlik, dini amillə bağlı bir cəhəti də xüsusi ilə vurğulamaq lazımdır ki, iranlılar dini rejimin mahiyyətini öz həyatlarında çox yaxşı təcrübədən keçirdikləri üçün artıq ondan birdəfəlik xilas olmaq üçün son döyüşə atılıblar. İndiki hadisələr göstərir ki, öz xalqının düşməni olan rejim başqa xalqların dostu ola bilməz. Baş verən hadisələr din amilinin tezliklə öz əhəmiyyətini itirəcəyi və İranda yaradılmış anti-Azərbaycan illüziyanın darmadağın olacağı məsajını da verir.

Bunları yaxşı bilən, ancaq satıldıqları rejimin yıxılacağından qorxan ideoloqlar, guya, İranın köklü və haqlı maraqlarını müdafiə etdiklərini güman edirlər. İranın həqiqi milli maraqları isə dini rejimin hakimiyyətinin qorunmasında deyil, burada yaşayan xalqların indiyədək saya salınmayan, nəzərə alınmayan milli haqlarının təmin edilməsində axtarılmalıdır.

**Hazırladı:
T.RÜSTƏMLİ**

YENİ NƏŞRLƏR

## Xətib Təbrizi - Azərbaycan mətnşünaslığının ön sözü

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Əlyazmaların və əski çap kitabların tərcüməsi şöbəsinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru Zəkiyyə Babayeva-Əbilovanın müəllifi olduğu "Xətib Təbrizi - Azərbaycan mətnşünaslığının ön sözü" adlı monoqrafiası işıq üzü görüb. Kitab Əlyazmalar İnstitutu Elmi Şurasının qərarı ilə nəşr edilib.**




Monoqrafiyada XI əsrin görkəmli şəxsiyyəti, Azərbaycanın böyük mətnşünas alimi, şairi, dil və ədəbiyyat bilicisi Yəhya ibn Əli bin Məhəmməd Şeybani Məkki əbi Zəkəriyyə Xətib Təbrizinin VIII əsr ərəb şair və dilçisi əl-Mufaddal əd-Dabbinin "əl-İxtiyarat" antologiyasına yazdığı şərh tədqiq olunur.

"Şərhu-İxtiyaratil-Mufaddal" adlanan əsərin Xətib Təbrizinin əli ilə yazılmış, Tunis Respublikasının Milli Kitabxanasında mühafizə olunan avtoqraf nüsxəsi Azərbaycanda ilk dəfə tədqiqata cəlb edilib, elmi-paleoqrafik xüsusiyyətləri araşdırılıb, antologiyaya daxil edilmiş şairlərin və onların qəsidələrinin sayı müəyyənləşdirilib.

Monoqrafiyada əsərin digər əlyazma, eləcə də çap nüsxələri barədə də məlumat verilib.

Kitab "Antologiyaların tərtib edilməsi və ilk antologiyalar", "Xətib Təbrizi və onun "əl - İxtiyarat"a yazdığı şərh", "Şərhu - İxtiyaratil - Mufaddal"a daxil edilmiş şairlərin etiqadi baxımdan təsnifatı" adlarında üç fəsildən ibarətdir. Monoqrafiyaya ingiliscə xülasə, adlar göstəricisi, Xətib Təbrizinin əlyazmasından səhifələr və Tunis Milli Kitabxanası ilə yazışmalara dair sənədlər də əlavə edilib.

Qeyd edək ki, nəşrin elmi redaktoru və ön sözünün müəllifi akademik Rafael Hüseynov, elmi məsləhətçisi mərhum şərqşünas filologiya elmləri doktoru, professor Malik Mahmudov, rəyçiləri filologiya elmləri doktorları, professorlar Kamandar Şərifov və Aida Qasımova, korrektoru filologiya üzrə fəlsəfə doktoru, dosent Rübabə Şirinova, xülasəni ingilis dilinə çevirən isə tərcüməçi Səmra Tahirovadır.

**Vəfa SAHİBQIZI
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun İctimaiyyətlə əlaqələr şöbəsinin redaktoru**

## Sahib ibn Əbbad və onun "Əl-iqna fil arud və taxricil qavafi" əsəri

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin aparıcı elmi işçisi, fil.ü.f.d. Xatın Cəfərlinin müəllifi olduğu "Sahib ibn Əbbad və onun "Əl-iqna fil arud və taxricil qavafi" əsəri" adlı monoqrafiya işıq üzü görüb.**




Monoqrafiyada X əsrin görkəmli ictimai-siyasi xadimi, alimi, ədibi, şairi Sahib ibn Əbbadın 1960-cı ildə Bağdadda görkəmli ərəb alimi Məhəmməd Həsən Al-e Yasin tərəfindən "əl-İqna fil əruz və təxricil qavafi" adı ilə nəşr olunmuş əsəri elmi tədqiqata cəlb olunur. Orta əsrlərdən ədəbiyyatşünasların diqqət mərkəzində olan bu əsər "əl-İqna fil əruz və təxricil qavafi" klassik Şərq poetikasının mühüm mənbəyi, ərəb əruz və qafiyə elminin nəzəri əsasları haqqında olduqca qiymətli tədqiqat işidir. Monoqrafiyada "əl-İqna fil əruz və təxricil qavafi" Şərq filoloji-elmi-nəzəri fikrinin digər görkəmli nümayəndələrinin məşhur əsərləri ilə müqayisədə öyrənilir.

Yeni nəşrin elmi redaktoru və "Ön söz"ün müəllifi fil.e.d., professor Kamandar Şərifov, rəyçiləri fil.e.d., professor Mahirə Quliyeva və fil.ü.f.d., dosent Nəzakət Məmmədlidir.

## Cəfər Cabbarlının bədii dilinin izahlı lüğəti

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda "Cəfər Cabbarlının bədii dilinin izahlı lüğəti" çap olunub.**




Lüğətin elmi məsləhətçisi professor Nadir Məmmədli, elmi redaktor və "Ön söz"ün müəllifi professor İsmayıl Məmmədlidir. Lüğətin rəyçiləri professorlar Məsud Mahmudov, Sayalı Sadıqova, məsul redaktor dosent Xədicə Heydərovadır.

Cəfər Cabbarlı dilinin lüğəti Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsi tərəfindən hazırlanıb. Tərtibçiləri professorlar İsmayıl Məmmədli, Aydın Ələkbərli, filologiya elmləri doktoru Nəriman Əliyev, filologiya üzrə fəlsəfə doktoru Bəhruz Abdullayev və aparıcı elmi işçi Nigar Ağayevadır.

Təqdim olunan izahlı lüğət Cəfər Cabbarlının əsərlərinin dilinin lüğət tərkibini özündə əks etdirir. Burada Cəfər Cabbarlının bədii əsərlərində istifadə edilmiş bütün lüğəvi vahidlər əhatə edilib.

Lüğətdə 6889 baş söz və 1100 ifadə əks olunub. Lüğət elm və sənət adamları, dilçi və ədəbiyyatşünaslarla yanaşı, geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Lüğətə daxil olan sözlərin hər birinin C.Cabbarlının dilində kəsb etdiyi mənalar doğma dilimizin ifadə imkanlarını daha da genişləndirmək baxımından dəyərlidir.

# Güney folkloru - milli varlığın ölməzlik qaynağı



**İranda Azərbaycan türklərinin yaratdığı zəngin ağız ədəbiyyatı nümunələrinin toplanması və nəşri də yazılı əbədiyyat kimi daim basqılara məruz qalıb. Bu səbəbdən AMEA-nın Folklor İnstitutunda yaradılmış Cənubi Azərbaycan folkloru şöbəsi Arazın o tayına silsilə ekspedisiyalar təşkil edib, toplanmış rəngarəng və çoxsaylı folklor materiallarını 12 cilddə nəşr edib.**

Çoxcildliyə birinci kitabda yazdığı "Ön söz"də professor İsrafil Abbaslı bildirir: "Belə bir təqdirəlayiq ədəbi-mədəni hadisə xalqımızın yüzilliklər boyu yaranan, yaddaşlarda qorunan şifahi söz sənətinin səciyyəvi cəhətlərini üzə çıxarmaq məqsədi güdür. Kitabda örnəklərin (əərazinin danışıq tərzi, dialekt və şivə-ləhcə xüsusiyyətləri qorunmaqla) növ və janrlar üzrə təsnifatı aparılıb, söyləyicilər - informatorlar və toplayıcılar haqqında məlumat verilib, mifoloji və folklor obrazları, əşya, predmet, insan, heyvan, kənd, qaya, çay, müqəddəs daşlar, məişət alətləri kimi adlar göstəricisi əlavə olunub".

Xatırladaq ki, İran türklərinin ədəbi-bədii və folklor irsini nəşr etmək ölkəmizdə əvvəllər də gündəmdə olmuşdur. Bir neçə cilddə nəşr olunmuş "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (burada folklor örnəkləri də özünə yer almışdır), "Cənubi Azərbaycan müntəxabatı" (1998), professor B.Abdullanın tərtib etdiyi "Arazam, Kürə bəndəm" toplusu, "Qürbət folkloru", "Bizim ellər yerindəmi" kitabları belə nəşrlərdəndir. Bu silsilənin davamı kimi dəyərləndirilə bilən Güney Azərbaycanın tanınmış folklorşünası M.Ə.Fərzanənin topladığı örnəklər əsasında tərtib edilmiş toplu da Güney Azərbaycan folklorunun nəşri və təbliği işinə xidmət edir.

"Ön söz"də Güneydə folklor nümunələrinin toplanması və nəşri ilə bağlı mövcud çətinliklərdən söz açılaraq bildirilir ki, M.Fərzanənin butaylı folklorşünaslara təqdim etdiyi örnəklərində nəinki təkcə söyləyici və toplayıcılar barədə məlumat verilməmiş, söz sənəti nümunələrinin əksəriyyəti fars dilində uyğun nəşrlərdə çap olunmuşdur. Materiallar orijinallar qorunmadığından farscadan Azərbaycan türkcəsinə tərcümə olunmuşdur. Ana dilinin, oxunun, yazının qadağan olunduğu bu tarixi mərhələni səciyyələndirmək üçün bu faktın özü də kifayətdir.

Güney Azərbaycanda folklor toplamağın çətinliklərindən söz açan şair-publisist və folklorçu Mirhidayət Hesari bildirib ki, Azərbaycan şifahi söz sənəti örnəkləri farscaya çevrilərək həm İran radiosu, həm də mətbuatda fars folklor örnəkləri kimi təqdim olunur. Bununla da fars folkloruna qarışmış nümunələri seçmək, ayırd etmək çətinləşir. Bu baxımdan, M.Hesari Əli Əkbər Dehxudanın dörd cildlik "Məsəllər və hikmətli sözlər" əsərini Azərbaycan folklorunu fars örnəkləri kimi təqdim edən nəşrlərdən sayıb.

53 illik Pəhləvi rejimi dönəmində Azərbaycan türkcəsində danışmağın yasaq olunması, bu məsələ ilə bağlı cərimə tətbiq edilməsi barədə öz xatirələrində söz açan tanınmış dilçi və ədəbiyyatşünas Həmid Nitqi isə yazıb: "İbtidai məktəbdə oxuduğum vaxt dilimiz yasaq olunduğu illər türkcə da-




nışdığım üçün məndən ilk cəriməni aldılar, onda mən türkcənin və farscanın fərqinə vaqif oldum. Anladım ki, fərqləri varmış, evdə olanda atam deyərdi ki, filan kəlmənin farscası yoxdur". Cavad Heyət "Moğoyesət-ül-lüğəteyn" ("Müqayisəli lüğət") əsərində 1650 türk sözünün fars dilində qarşılığının olmamasını aşkarlamış və belə bir nəticəyə gəlmişdir ki, farslar bu sözlərin əvəzinə ərəb və türk dillərindən alınan sözlərdən istifadə etmişlər.

Bu baxımdan Güney folkloru toplusunda təqdim olunan mətnlərin qeyd edilən səbəblər ucbatından farscadan Azərbaycan türkcəsinə tərcüməsi zamanı canlı danışıq dilinin, milli koloritin nə dərəcədə qorunduğunu yəqin etmək mümkündür. Son illərdə aparılmış araşdırmada Güney Azərbaycan türklərinin ictimai-siyasi, mədəni-mənəvi mühiti belə səciyyələndirilir: "Azərbaycan dilinin, ədəbiyyatının, mətbuatının və bir sözlə desək - Azərbaycan milli-mədəni varlığının yasaq olunduğu illərdə bu mənəvi dəyərlərin ən geniş və kütləvi sahəsi sayılan xalq yaradıcılığı məhsullarının toplanması, araşdırılması və nəşri məsələsi bir yana qalsın, hətta ana dili, xalq varlığı, xalq ədəbiyyatı və xalq inancları kimi sözləri ağıza alıb danışmaq belə bağışlanmaz günah sayılırdı".

Həmin fikirləri özgə bir formada ifadə edən cənublu soydaşımız M.Səbri M.Fərzanənin "Pəhləvi rejimində Güney Azərbaycanda şifahi xalq ədəbiyyatının toplanması, araşdırılması və nəşri tarixindən" məqaləsinə istinadən qeyd edib ki, Pəhləvi rejimi xalqın milli-mənəvi duyğu və düşüncələrindən süzülüb gələn və onların tarixi milli qəhrəmanlıqlarını, mədəni bədii varlıqlarını canlandıran xalq ədəbiyyatının toplanması və nəşrinə imkan verməmişdir. İranda Azərbaycan türk folklorunun Pəhləvi dönəmindəki nəşri barədə söz açan Ə.Sərrafi olduqca acınacaqlı bir faktı belə ifadə edib: "53 illik Pəhləvi rejimi illərində folklorumuza aid cəmi 26 kitab işıq üzü görmüşdür ki, onların ancaq 8-i türkcə, qalanı isə farscadır".

Əlbəttə, bu rəqəmlər o qədər də inandırıcı səslənmir və M.Fərzanənin etirafı bu məsələyə aydınlıq gətirir. O, öz araşdırmalarında dəfələrlə vurğulayıb ki, Güney Azərbaycanda xalq ədəbiyyatının səmərəli toplanılıb mətbuatda çap olunması milli hökumət dövrünə - 1945-1946-cı illərə təsadüf edir. "Güney Azərbaycan folkloru" toplusunda M.Fərzanənin "Varlıq" dərgisinin ayrı-ayrı saylarında çap olunmuş "Ana dilimiz və milli varlığımız uğrunda mübarizələr dəftərindən" silsilə yazılarında, habelə "Azərbaycan el ədəbiyyatından atalar sözü və məsəllərə aid bir orijinal əsər", "Azərbaycan el mahnıları", "Dədə Qorqud boylarının dil və üslub özəlliklərini Azərbaycan türkcəsində aramalıyıq", "Novruz - el bayramı, bahar bayramı B.Q.Səhəndin şeirində", "Pəhləvi rejimində Güney Azərbaycanda şifahi xalq ədəbiyyatının toplanması, araşdırılması və nəşri tarixindən", "Söz dünyamız və folklor", "Molla Nəsrəddin lətifələri" və s. kimi məqalələrində əksini tapmış folklorumuzun çoxyönlü qayğıları, qaynaqları kimi bir sıra önəmli məsələlərə də toxunulub.

M.Fərzanənin adı ilə bağlı bu toplunun nəşrini son dərəcə təqdirəlayiq ədəbi-mədəni hadisə kimi dəyərləndirən folklorşünas İsrafil Abbaslı sonda yazır: "Bu nəşr ömrünün son çağlarında doğma Vətənini tərk edib qürbətdə dünyasını dəyişən Məmmədəli Qövsi Fərzanənin işıqlı ruhu qarşısında müstəqil Azərbaycan folklorşünaslarının vəfa borcunun kiçik ifadəsidir".

**Güneydə xalq mahnısı**

**Apardı sellər Saranı**

Arpa çayı aşdı, daşdı
Sel Saranı aldı qaçdı.
Ala gözlü, qələm qaşdı
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!
Arpa çayı dərin olmaz,
Axar sular sərin olmaz,
Sara kimi gəlin olmaz,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Arpa çayı düşüb ada,
Yaradan yetişsin dada,
Sarı başmaq üzür suda,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!
Sel Saraya oldu yağı,
Su bürüdü solu, sağı,
Yasa batdı toy otağı,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Mən bu bağa girməmişəm,
Qonçə gülün dərməmişəm,
Mən Saranı görməmişəm,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!
Olduq əcəb günü qara,
Dərdimizə yoxdu çara,
Sara həsrət qaldı yara,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıb nahaq qana,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!
Arabalar qoşa-qoşa,
Qurban olum qələm-qaşa,
Oğlan, əlin çıxdı boşa,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

**Tahir AYDINOĞLU**

**BEYNƏLXALQ ELMİ ƏMƏKDAŞLIQ**

## Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları beynəlxalq konfransda

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun, Azərbaycan Coğrafiya Cəmiyyətinin, Azərbaycan Turizm və Menecment Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının, Bursa Uludağ Universitetinin (Türkiyə), Qırğızıstan Təhsil Akademiyasının, Cizzak Dövlət Pedaqoji İnstitutunun (Özbəkistan) və Tiraspol Dövlət Universitetinin (Moldova) təşkilatçılığı ilə noyabrın 29-30-da akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda "Coğrafiyanın müasir problemləri, elm və təhsilin inteqrasiyası" adlı beynəlxalq elmi-praktiki konfrans keçirilib.**



Konfransda AMEA-nın nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) Zəlzələ ocaqlarının dinamikası şöbəsinin müdiri, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Kazımova və Geodinamika şöbəsinin müdiri, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent İlyas Kazımov iştirak ediblər. Konfransda RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli və hər iki şöbə müdirinin (S.Kazımova və İ.Kazımov) birgə həmmüəllifi olduqları "Zəlzələlərin ətraf mühitə təsiri" mövzusunda məruzə təqdim olunub.

RSXM-nin şöbə müdirləri konfransın təşkilat komitəsi tərəfindən sertifikatla təltif olunublar.

## Azərbaycan arxeoloqları Başqırdıstanda tədqiqat aparacaqlar

**AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru professor Abbas Seyidov Rusiya Federasiyasının Başqırdıstan Respublikasının paytaxtı Ufada keçirilən beynəlxalq elmi-praktik konfransda məruzə ilə çıxış edib. Tədbirdə Rusiya, Özbəkistan, Azərbaycan, Qazaxıstan və Monqolustandan alimlər iştirak ediblər.**

Konfrans iştirakçıları öncə Ufa şəhərindən təxminən 400 km aralıda ibtidai insan məskəni olan məşhur Şulqan-Taş mağarasında və orada bu ilin iyul ayında açılmış müasir tipli muzeydə olublar. Mağaranın içərisinə uzanan yolların uzunluğu 3 km-dən artıqdır. Şulqan çayı mağaranın altından keçərək, onun giriş hissəsində yenidən üzə çıxır.



Qonaqlar Başqırdıstanın Milli Tarix Muzeyində, Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan qiymətli əşyalarla, xüsusən Sarmat dövrünün qızıl əşyaları ilə tanış olub, Salavat Yulayevin abidəsini ziyarət ediblər.

A.Seyidov üzəri əl işi ilə bəzədilən Azərbaycan Respublikasının Dövlət Bayrağının kiçik maketini konfransın təşkilatçılarına hədiyyə edib, Ufa televiziyasına, Başqırdıstanın müxtəlif informasiya agentliklərinə müsahibə verib.

Tədbir çərçivəsində Başqırdıstan arxeoloqlarının Azərbaycanda, Azərbaycan arxeoloqlarının isə Başqırdıstanda tədqiqat aparması üçün ilkin razılığa gəlinib.

## Türkiyədə beynəlxalq simpoziumda

**Türkiyənin İzmir şəhərində Egey Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu (TDAE), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Qaraqalpaq Universiteti (QDU), Azərbaycan Dövlət Gömrük Komitəsi Akademiyası, Beynəlxalq Baxış Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU), Azərbaycan Əmək və Sosial Əlaqələr Akademiyası və Prizren Universiteti (UPZ) ilə əməkdaşlıq çərçivəsində Türk Dünyası Sosial Elmlər üzrə Beynəlxalq Simpoziumu keçirilib.**

Tədbirdə həm canlı, həm də onlayn rejimdə iştirak etmək imkanları yaradılıb. Simpoziuma türk dünyasından tarixçilər, iqtisadçılar, dilçilər, sosioloqlar qatılıblar.



Simpoziumda Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun Xüsusi tədqiqat layihələri üzrə baş direktor müavini, i.f.d., dosent Allahyar Muradov da iştirak edib. O, "Sosial-sahibkarlıq, insan kapitalı və inklüziv iqtisadi artım: ölkələrarası müqayisəli təhlil" mövzusunda məruzə ilə çıxış edib, məruzə ətrafında maraqlı müzakirələr aparılıb.

**Redaksiya heyəti:**
İsa Həbibbəyli, Arif Həşimov, Dilqəm Tağıyev, İbrahim Quliyev, Nərgiz Paşayeva, Rasim Əliquliyev, Tofiq Nağıyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, Cəmil Əliyev, İsmayıl Hacıyev, Fuad Əliyev

**Baş redaktor:** Ağahüseyn Şükürov

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
**e-mail:** elm.nauka.gazet@gmail.com
Qəzet "Elm" qəzetinin redaksiyasında yığılır və "CBS" nəşriyyatında çap olunur.
**Tiraj: 2000**

# НАУКА

Сила в науке...

